İRFAN

№ 67 İyun 2012 İctimai fikir jurnalı 3 AZN



MÜBARƏK ÜÇ AYLAR

İRFAN
İyun/2012/№:67
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2012 © All Rights Reserved
Created and supported by "irfan"

Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işlərindən məsul:
Elşad KƏRİMLİ
Tel: 050 379 01 79

Şikayət və təkliflərniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

İslam dinində "Üç Aylar" adı ilə məşhur olan mənəvi bir mövsümü yaşayırıq. Rəcəb, Şaban və Ramazan ayları ömrümüzü bərəkətləndirməyə vəsilə olacaq müstəsna zaman kəsiyidir. Bu aylar hər bir müsəlmanın həyatında çox dəyərlidir. Bu ayların gəlişi ilə bir növ ömrümüzə bahar ab-havası hakim olur. İslam dünyasında bir canlanma yaşanır bu aylarda. Hər kəs Allahın bəxş etdiyi bu gözəllikdən hədsiz dərəcədə istifadə etməyin dərdinə düşür. Və ya düşməlidir. Günahların bağışlandığı, rəhmət qapılarının açıldığı bir mövsümdə biz də jurnalımızın ana mövzusunu **"Üç Aylar"**a həsr etdik. Bu sayımızda *"Üç ayları dərk etmək"*, *"Üç aylar və dindəki yeri"* başlıqlı məqalələrdə bu bərəkətli mövsümün fəlsəfəsini oxuyacaqsınız. Məktəblilərin yay tətilinə buraxıldığı və övladlarınız üçün vaxtlarını səmərəli keçirəcəkləri yerlər, fəaliyyətlər axtardığınız bir zamanda *"Fürsət mövsümü"*nü necə dəyərləndirəcəyinizi oxuyacaqsınız.

Jurnalımızın bu sayında bir-birindən maraqlı üç reportajla görüşünüzə gəldik. Tanınmış türk şairi, Rəsulullahı tərənnümü ilə məşhur "Yağmur" şeirinin müəllifi **Nurullah Gençin** Azərbaycanda olmasını fürsət bilərək görüşünə getdik və sizin üçün ədəbiyyat üzərinə gözəl bir reportaj hazırladıq. Eyni zamanda əməkdaşlarımız Türkiyə Cümhuriyyəti A. M. Hüdayi Vəqfinin xarici ölkələr üzrə xidmət sektorunun rəhbəri **Dr. Alican Tatlı**dan aclıq və səfalət içində boğulan Afrika haqda geniş reportaj aldılar. "Ağsaqqal Nəsihəti" rubrikamız davam edir. Bu sayımızda Astara rayonundan olan ağsaqqalımız **Feyzullah dayı** ilə görüşüb dərdləşdik.

"Balıq satan qoca", *"Tövhidi anlamaq"*, *"Borc alıb-vermək"*, *"Zikr daimi məhəbbət tərənnümüdür"*, *"Sevmək imandandır, söymək deyil"* başlıqlı məqalələr sevərək oxuyacağınız, bir-birindən maraqlı yazılardır. Bir möminin dünya ilə əlaqəsinin hansı çərçivədə olacağını isə möhtərəm könül insanının *"Mömin və Dünya"* adlı məqaləsindən oxuyacaqsınız.

Əziz Oxucu!

Hər birinizi İrfan kollektivi adından "Üç Aylar"ın gəlişi münasibətilə təbrik edirik! Buyurun, jurnalımızın bir-birindən maraqlı səhifələri sizi gözləyir.

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

Üç Aylar və Dindəki Yeri
Dr. Əhməd Niyazov 5

Dr. Alican Tatlı İlə Reportaj 10

Bir Yanlışı Düzəldək
Məmməd Afiq 15

Tövhidi Anlamaq
Saleh Şirin 16

Balıq Satan Qoca
Eldar Kərimov 18

Borc Alıb-Vermək
Müşfiq Xəlilov 20

Ağsaqqal Nəsihəti 22

Bu Tətildə də Ziyarətinə Gələcəkdim
Yahya Həşimov 25

Zikr Daimi Məhəbbət Tərənnümüdür
Salih Zeki Meriç 26

İmam Əhməd bin Hənbəl
İbrahim Erol 36

Müdriklərdən Öyüdlər
Akif Hüseyinli 43

Sevmək İmandandır, Söymək Deyil
Adem Şahin 44

Allahın Əzabı
Mübariz Əlioğlu 46

Can Azərbaycana Əlvida
Hasan Enes Ünlü 48

Sual-Cavab
Anar Qurbanov 50

Hikmət Lövhələri
Kamran Məmmədov 52

Xəbər 54

Nəşrlər 55

ÜÇ AYLARI DƏRK ETMƏK
Nurlan Məmmədzadə 3

FÜRSƏT MÖVSÜMÜ
Elşən Rzayev 8

MÖMİN VƏ DÜNYA
Osman Nuri Topbaş 28

Şair Nurullah Gençlə
Reportaj 38

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

ÜÇ AYLARI DƏRK ETMƏK

Yaranmış bütün məxluqat bu dünyada zaman və məkanla məhdud qılınmışdır. Müəyyən zaman içində, məkan çərçivəsində yaşayırıq. Ömür yolumuz məhz bu iki ünsür ətrafında davam edir. Hər kəs yaşayır, ömür sürür, saylı nəfəsləri tükədərək həyatının sonuna yaxınlaşır. İstəsək də, istəməsək də zaman gəlib keçməkdə, ömür tükənməkdədir. Zamanı saxlamağa gücümüz çatmaz, amma onu bərəkətləndirmək, səmərəli istifadə etmək bizim əlimizdədir. Ömrün bərəkəti Allaha xidmətdədir. Onun qoyduğu qanunlar çərçivəsində yaşamaqdadır.

Keçdiyimiz zaman tunelində Haqq-Təala bizim üçün müəyyən sürprizlər var etmişdir. Heç bir istisnası olmadan hər ilin üç ayını xüsusi bərəkətləndirmişdir. Rəcəb, Şaban, Ramazan ayları bir insanın bütün ömrü boyu nail olacağı savabı hətta bundan daha artığını qazanması üçün bir vəsilədir. Hələ Ramazanda bir Qədr gecəsi var ki, min aydan daha xeyirlidir. Üç aylar Allaha daha yaxın olma ayıdır, dua və niyazların artırıldığı, ibadətdə canlanmanın yaşandığı bir mövsümdür.

Rəcəb ayı xüsusilə Həzrət Peyğəmbərin meracıyla yada düşür. Rəcəbin 27-ci gecəsi o Uca Nəbinin zaman və məkanın fövqünə çıxaraq Rəbbi ilə görüşdüyü bir gecədir. Bu baxımdan möminin meracı sayılan namazı artırmalı, səcdələri çoxaltmalıyıq. Allahın hüzurunda durarkən ehsan duyğusunu yaxalamağa cəhd göstərməliyik. Onu görürmüş kimi, sanki meracda Rəsulullahla bərabərmiş

kimi... Zamandan və məkandan sıyrılaraq, hər şeyi arxada qoyaraq Allaha sarı qaçmaq...

Digər tərəfdən Hz. Peyğəmbərin Rəcəb ayında nafilə orucları artırdığını da müşahidə edirik. Əshabi-kiramın dediyinə görə Allah Rəsulu bəzən Rəcəb ayında o qədər oruclu olardı ki, ayın hər günündə oruc tutacağını zənn edərdilər. Çünki oruc nəfs əngəlini aşmaq üçün ən gözəl vasitələrdən biridir. Aclıqla bədənin istəklərinə dur deyib mənəvi ab-havanın hakim olması insanı Allaha yaxınlaşdırır. Bu da merac ayında Ona yüksəlmənin başqa bir vasitəsi olmalıdır bizim üçün.

Şaban bəraət ayıdır. Günahlara tövbə və istiğfar, pisliklərdən təmizlənmə, bəraət qazanma ayı. Cənnətə girməyə, camalullaha yaxınlaşmağa mane olan nə varsa hamısından sıyrılma, təmizlənmə və paklanma ayıdır Şaban. Ömrün təmizlənməsi, Ramazana hazırlıq ayıdır. Yazı taxtasındakı cızma-qaraları silərək yeni və faydalı şeylər yazarlar. Şaban da bir növ elədir. Əməl dəftərimizdəki "mənfi"ləri istiğfar silgisiylə silmə, günah cızma-qarasından görünməz hala gəlmiş səhifələri tövbə ilə ağartma, yeni yazılar üçün hazırlama ayıdır. Çünki qarşıdan rəhməti-Rəhmanın bol-bol təcəlli edəcəyi Ramazani-Şərif gəlir. Ona istənilən formada qovuşmaq və lazımi qidaları təmin etmək üçün paklanmaq şərtdir. Bu baxımdan ömür yolunda qarşımıza çıxan Şaban ayı paklanma dayanacağımız olmalıdır. Çünki bu ayda Həzrət Peyğəmbərin buyurduğu kimi elə bir gecə var ki, Uca Yaradan Bəni-Kəlb qəbiləsinin qoyunlarının tükü qədər insanı cəhənnəmdən azad edər.[1]

Ramazan insanlara hidayət yolunu göstərən Qurani-Kərimin nazil olduğu bir aydır. Bütün hazırlıqlar tamamlandıqdan sonra mənəvi atmosferin daha da hakim olduğu Ramazani-Şərif qapımızı döyür. Əvvəli rəhmət, ortası məğfirət, sonu cəhənnəmdən qurtuluşdur. Ramazan orucla dünyadan uzaqlaşıb Quranla Rəhmana yönəldiyimiz ay olmalıdır. Çünki hidayət rəhbərimiz bu ayda nazil olmuşdur. Quran mərkəzli yaşamağı öyrənmə mövsümü olmalıdır Ramazanlar. Oxuyarkən sanki yeni nazil olurmuş kimi özümüzü ayələrin məhək daşına vurmalıyıq. Kimliyimizi, əməllərimizi, həyatımızı sorğu-sual etməliyik. Yalnız mədəmizə deyil, bütün əzalarımıza oruc tutdurmalı, bütünlüklə Haqqa təslimiyyət şüurunda olmalıyıq. Yenidən Quranla yoğrulub sanki təzədən doğulmalıyıq həyata. Anadan günahsız doğulan uşaqlar kimi, hətta əməl dəftərimizdə savabların çoxluğu ilə. Çünki elə buyurmuşdur buyuran: *"Ramazana yetişdiyi halda günahları bağışlanmayanın burnu yerlə sürtülsün"*.[2]

Üç aylar haqda böyük Allah dostları belə buyurmuşlar:

Rəcəb əza və cəfanı tərk etmək üçün, Şaban əməl və vəfa üçün, Ramazan sidq və səfa üçündür.

Rəcəb tövbə və peşmanlıq ayı, Şaban məhəbbət ayı, Ramazan qürbət (Allaha yaxınlaşma) ayıdır.

Rəcəb ehtiram, Şaban xidmət, Ramazan nemət ayıdır.

Rəcəb ibadət ayı, Şaban dünyanın səfasını tərk etmə ayı, Ramazan ibadətlərin mükafatını artıran aydır.

Böyük Haqq dostu Zünnun Misri də belə demişdir:

"Rəcəb əkin ayıdır, Şaban sulama. Ramazansa biçim mövsümüdür. Kim nə əkərsə, onu biçər, nə edərsə qarşılığını görər. Bir adam əkinə laqeyd qalarsa, biçim vaxtı heç nə əkmədiyi üçün peşman olar. Qiyamət günündə isə pis vəziyyətə düşər."

Üç ayları bu gözlə görməli, bu cür dərk etməliyik. Beləliklə həyatımızı daha bərəkətli hala gətirməliyik. Çünki bu dünyada bir dəfə yaşayırıq və hər keçən an ömürdən gedir.

1. Buxari, ət Tərğib vət Tərhib, II,118
2. (Tirmizi, Dəavat 110, (3539)

Dr. Əhməd NİYAZOV

ÜÇ AYLAR VƏ DİNDƏKİ YERİ

El arasında oruc ayları kimi tanınan "**Üç aylar**" mübarək gün və gecələrlə yadda qalan Ramazani-Şərif və onun müjdəçisi olan Rəcəb və Şabani-Şərifdir. "*Üç aylar*" məfhumu ilə təşəkkül tapmış bu ayların tarixi seyrini aşağıdakı kimi göstərmək olar.

Uca Allah Tövbə surəsinin 36-cı ayəsində belə buyurur "**Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir. Ona görə də həmin aylarda özünüzə zülm etməyin.**"

Təfsir alimlərinə görə aylar içində bu dörd ayın haram/müqəddəs olması İbrahim və İsmayıl əleyhissalamın dinindən qalmışdır. Hələ cahiliyyə dövründə bu aylar müqəddəs sayılardı. Ona görə də bu aylar gələndə qan tökülməz, qılınclar qınına qoyulardı. (Kəşşaf, II/261.) Bu, elə hənif dinindən bu vaxta qədər davam etmiş bir təmayüldür. Belə ki, müəyyən ayların digərləri arasında daha əhəmiyyətli olması, hətta "**biz onu mübarək bir gecədə nazil etdik**" (Duxan 44/3) ayəsində günün belə mübarək və müqəddəsliyi ilə seçildiyinin şahidi oluruq.

Ayənin "**həmin aylarda özünüzə zülm etməyin**" ifadəsi haqqında alimlər belə demişlər: "Zülm etmək əslində həmişə haram olan bir qadağa olsa da, bu aylara hörmətən daha diqqətli olmaq və daha çox təzim göstərərək zülmdən çəkinmək lazımdır." (Əbu Həyyan, Bəhrul-Muhit, V/415) Elə isə haram aylarda saleh əməl işləmənin savabı digər aylara görə daha böyükdür. Hər nə qədər digər zamanlarda zülm etmək böyük bir günah isə bu aylarda zülm etmənin günahı daha böyükdür. (Təbəri, Cameul-Bəyan, VI/366.) Necə ki Qurani-Kərimdə: "**(Ya Rəsulum!) Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır**" (Bəqərə 2/217.) deyərək bu aya qarşı hörmətsizlik edilməməsi tələb edilmiş (Maidə 5/2.) Kəbə kimi bu aya hörmətamiz yanaşmanın insanların yaxşılığı üçün bir səbəb qılındığı (Maidə 5/97) göstərilmişdir. Bu aydakı günahın daha böyük olacağını deyən Bəğavi kimi böyük təfsir alimləri, bu ayın "**şəhrul-haram**"ın - Rəcəb ayı olduğunu qeyd edirlər. (Təfsirul-Bəğavi, 1/190.)

Hədislərə gəlincə Həzrət Peyğəmbər əleyhissalam buyurur: "*Zaman dönüb-dolaşıb Allahın göyləri və yeri yaratdığı günki ilk heyətinə qovuşdu. Bunlardan dördü haram aydır ki, üçü ardarda gəlir. Zilqədə, zilhiccə və məhərrəm. Dördüncüsü isə camada və şaban arasındaki rəcəb ayıdır.*" (Buxari, Təfsir 9; Əbu Davud, Mənasik 67.) Bütün

bunlardan aydın olur ki, zamanın bir qismi digərindən fərqlənərək fəzilət və rəhməti baxımından, eyni zamanda o ana aid ibadətlərinin üstünlüyü baxımından fərqli ola bilər.

Rəcəb ayının haram aylar arasında sayılması şübhəsiz ki, onun yuxarıda qeyd edilən xüsusi əhəmiyyət kəsb edən bir zaman olması ilə əlaqədardır. Bu ayın ilk cümə gecəsi "Rəqaib", 27-ci gecəsi isə İslam dünyasının böyük əhəmiyyət verdiyi "Merac" gecəsidir. Merac hadisəsi haqqında Quranda başlı-başına bir surə, "*İsra*" endirilmişdir ki, İslamın on iki əsası xülasə şəklində (İsra, 17/23-39) bu ayda endirilmişdir. Dinin dirəyi beş vaxt namaz həmçinin bu ayda fərz qılınmışdır. Ənəs bin Malikdən rəvayət edlir ki, Rəcəb ayı girəndə Həzrət Peyğəmbər əleyhissalam belə dua edərdi: "*Allahım rəcəb və şabanı bizə mübarək qıl, bizi Ramazana qovuşdur.*" (Ə. bin Hənbəl, Müsnəd 1/259) Bununla yanaşı Həzrət Peyğəmbərin bu ayda oruc tutmağa təşviq edən səhih rəvayətləri nəql edilmişdir. Osman b. Hakim Səid b. Cübeyrə Rəcəb ayı orucu haqda sual verdi. O da Abdullah b. Abbas rəvayəti ilə belə cavab verdi: - Rəsulullah bəzən o qədər oruc tutardı ki, biz artıq heç orucunu pozmayacağını düşünərdik. Bəzən də "deyəsən oruc tutmayacaq" deyəcək qədər orucu tərk edərdi. (Əbu Davud, Savm, 60; Tirmizi, Savm, 43.) Əbu Davud və İbn Macə də səhabələrin bu aya məxsus bir oruc tutduqlarını xüsusi qeyd etmişdir. Səhabələrin böyük fəqihlərindən Abdullah İbn Abbas və Abdullah İbn Ömər Rəcəb ayının bəzi günlərində oruc tutmuş bəzi günlərində tutmamışlar. (İbn Rəcəb, Lətaif, s 132) Müctəhid imamlardan Əhməd b. Hənbəl və İmam Şafei Rəcəb ayının hamısını oruclu keçirməyin xoş olmadığını, bir-iki günü orucsuz olmağı məsləhət bildirmişdir. (e.a.ə)

Gecələri ilə bilinən Rəcəb ayı və Həzrət Peyğəmbərin ən çox oruc tutduğu, eyni zamanda haqqında Ramazanı təzim üçün oruc tutulan ay dediyi Şaban ayı, hər ikisi Ramazan kimi fəzilətli bir aya mənəvi bir hazırlıq mərhələsidir.

Şaban ayına gəlincə, bu ay ümmətin nafilə oruc ayı kimi bildiyi bir aydır. Çünki Həzrət Aişə belə rəvayət edir: "*Peyğəmbər əlehissalam Şaban ayında tutduğu orucu Ramazan ayından başqa heç bir ayda tutmamışdır.*" (Buxari, Savm, 39; İbn Macə, Zöhd 28.) Bu ayın fəziləti haqqında isə əshabdan Üsamə b. Zeyd belə rəvayət edir: "*Allah Rəsulunun Şaban ayında tutduğu orucu heç bir ayda tutmadığını gördüm. Ona:*

- Ya Rəsulallah! Şaban ayında tutduğun orucu başqa heç bir ayda tutmadığını gördüm, -deyəndə belə buyurdu:

- Şaban Rəcəb ilə Ramazan arasında insanların qafil olduğu və əməllərin Allaha yüksəldiyi aydır. Mən də əməlimin oruclu olduğum halda yüksəlməsini sevirəm" (Nəsai, Siyam 70) Həmçinin bu ayın 15-ci gecəsi ümmətin "**Bərat**" deyə bildiyi mübarək gecədir. Əbu Musa əl-Əşaridən belə rəvayət edilir: "*Şaban ayının orta gecəsi gecə namazına durun, o gecənin gündüzündə də oruc tutun. Çünki Allah o gecə günəş batınca dünya səmasına təcəlli edər və Bəni-Kəlb qəbiləsinin qoyunlarının tüklərinin sayından daha çox insanın günahlarını bağışlayar.*" (Tirmizi, Savm, 38; Əhməd b. Hənbəl, Müsnəd, VI/238)

Şaban ayının fəziləti barəsində aşağıdakı rəvayəti qeyd etmək kifayətdir. Həzrət Peyğəmbərdən soruşdular: "*Ya Rəsulallah! Ramazandan başqa fəziləti ən çox olan oruc*

"Şaban ayının orta gecəsi gecə namazına durun, o gecənin gündüzündə də oruc tutun. Çünki Allah o gecə günəş batınca dünya səmasına təcəlli edər və Bəni-Kəlb qəbiləsinin qoyunlarının tüklərinin sayından daha çox insanın günahlarını bağışlayar."

ayı hansıdır?" O da: - Ramazanı təzim üçün Şabanda tutulan orucdur" dedi.

Nəticə olarak istər Rəcəb ayı, istərsə də Şaban ayı rəvayətlərdən də görüldüyü kimi bir növ Ramazana hazırlıq aylarıdır. Belə ki, Quranda haram aylardan hesab edilməsi ilə yanaşı oruc ibadəti və mübarək gün və gecələri ilə bilinən Rəcəb ayı və Həzrət Peyğəmbərin ən çox oruc tutduğu, eyni zamanda haqqında Ramazanı təzim üçün oruc tutulan ay dediyi Şaban ayı, hər ikisi Ramazan kimi fəzilətli bir aya mənəvi bir hazırlıq mərhələsidir. Necə ki, alimlərimiz dəstəmaz, azan, dualar və sünnələrin hər birini qılınacaq fərz namazdan əvvəlki hazırlıqdır sayaraq ilahi dərgaha ixlasla pənah aparma hesab etmişlər. Məhz Rəcəb və Şaban da Ramazan ayı üçün psixoloji hazırlıq mahiyyəti daşıyır. Bu baxımdan keçmişdən bu günə ümmətin könlündə oruc ayları kimi taxt quran Rəcəb, Şaban və Ramazan "**üç aylar**" adı ilə hallanmışdır. Rəcəbin Qurani-Kərimdə haram aylar adı ilə keçməsi, Şabanın Peyğəmbərin ən çox oruc tutduğu ay olması səbəbilə olmalı ki, hədisi-şərifdə Həzrət Peyğəmbər aylar haqqında belə buyurur: "*Rəcəb Allahın, Şaban mənim, Ramazan ümmətimin ayıdır*". (Suyuti, Camius-Sağir 4411.)

Elşən RZAYEV
elshanrza@hotmail.com

FÜRSƏT MÖVSÜMÜ

Bəzən jurnaldakı yazılarımızda eyni mövzulara təmas etdiyimizi dilə gətirən oxucularla rastlaşırıq. Əvvəlcə onu qeyd edim ki, biz oxuculardan gələn hər bir təklifi qəbul edirik və belə diqqətli oxucularımıza təşəkkür edirik. Ancaq qeyd edək ki, jurnalımızda bəzi mövzuların təkrar edilməsi mövzu qıtlığından deyil, əksinə müraciət etdiyimiz mövzuların əhəmiyyətindən irəli gəlir.

Məsələyə psixoloji tərəfdən yanaşsaq görərik ki, təkrarın insan üzərində çox böyük təsiri var. Günümüzdə şirkətlər bundan çox məharətlə istifadə edirlər. Bir malı reklam edərkən bir çox reklam lövhələri qururlar. Lövhələrin hər birində eyni sözlər yazılır. Eyni reklamı bu şəkildə təkrar etmələri, bunun insan psixologiyasına təsirindən irəli gəlir.

Hər hansı bir düşüncəni yerləşdirmək istədiyinizdə o düşüncəni dəfələrlə təkrar etmək çox mühümür. Müəyyən vaxt keçdikdən sonra insanın həmin düşüncəyə yaxınlaşdığını görə bilərsiniz.

Bəlkə müvəqqəti bir düşüncənin belə bir təkrara ehtiyacı yoxdur. Ancaq verdiyiniz mesajın qalıcı olmasını istəyirsinizsə, qəlblərin dərinliklərinə kök salması üçün təkrara ehtiyac var. Eynilə bir toxumun kök atıb böyüməsi üçün təkrar-təkrar sulanmağa ehtiyacı olduğu kimi.

İman da belədir. Ürəklərdə yerləşib kök atması üçün təkrar edilməsi və toxum kimi bəslənməsi zəruridir. Necə ki, namaz gündə beş dəfə təkrar edilir. Həmçinin Qurani-Kərimdə bir çox mövzular müxtəlif ayələrdə təkrar-təkrar verilmişdir.

Elə bu yazımda müraciət etdiyim mövzu əvvəllər də bir neçə dəfə qələmə aldığım övlad tərbiyəsidir.

Yenə yay fəsli gəldi. Və yenə təhsil ilinin yorğunluğunu övladlarının üzərindən atmaq istəyən valideynlər yəqin ki, onlar üçün mənalı istirahət və əyləncə yerləri seçməkdə xeyli götür-qoy edirlər. Nədənsə hər il yay tətili gəldikdə mənim də gündəmimə övlad tərbiyəsi gəlir. Bəlkə də övladlarına düşkün olan valideynlərin yay tətilində onların istirahətini mənalı təşkil etmək həyəcanı məni də bu mövzuya müraciət etməyə vadar edir. Bu, çox

mühüm məsələdir. Çünki hər bir xalqın, hər bir millətin, hər bir ölkənin övladları onun həm bu günü, həm sabahı, həm də ümidir.

Övlad tərbiyəsi bir millətin istiqbalını hazırlayır. Buna laqeyd yanaşanlar millətin üfüqlərini qaraldırlar. Ancaq övladlarını tərbiyə edən millətlər gələcəyindən əmin ola bilərlər.

Allah-Təala insanı maddə və ruhdan xəlq etmişdir. Bədən üçün maddi qidalar ehsan etdiyi kimi, ruh üçün də mənəvi qidalar bəxş etmişdir. İnsanın sağlam yaşaması üçün bunların hər ikisi də mühümdür. Birinin az, digərinin çox olması insanın normal həyat yaşamasına məne olan amillərdəndir. Elə buna görə də bədənini maddi qidalarla bəsləyib, ruhunun mənəvi qidasına biganə qalanlar ağıllı insan olduqlarını iddia etməzdən əvvəl düşünməlidirlər.

Övladın sadəcə qarnını doyuzdurub, əynini geyindirmək, istirahətlərini təşkil etmək hələ onlara qarşı vəzifələri yerinə yetirmək deyil. Necə ki, dişi ağrayan birinin barmağına dərman sürtməklə dişinin ağrısı kəsməzsə, övladlarımızın da qarnını doyuzdurmaqla ruhlarındakı boşluğu doldurmaq mümkün olmaz.

Övladlarını çiçək yetirildiyi kimi yalnız yemək və içməklə bəsləyən, vitrindəki manikenlər kimi bəzəyib geyindirən, lakin kamil bir imana, gözəl əxlaqa sahib olması üçün çalışmayan hər valideyn Allah dərgahında məsuliyyətdən yaxa qurtara bilməyəcəkdir. Hər bir valideyn övladına görə məsuliyyyət daşıyır. Bu məsuliyyət tarix boyu valideynləri övlad tərbiyəsinə sövq etmişdir. Bu məsuliyyət Peyğəmbərləri belə Allah qorxusu ilə titrətmişdir. Qurani-Kərimdə İbrahim və Yaqub peyğəmbərin öz oğlanlarına vəsiyyət edib: **"Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!"** (Bəqərə, 132) dediyi qeyd edilir.

Övladlarını çiçək yetirildiyi kimi yalnız yemək və içməklə bəsləyən, vitrindəki manikenlər kimi bəzəyib geyindirən, lakin kamil bir imana, gözəl əxlaqa sahib olması üçün çalışılmayan hər valideyn Allah dərgahında məsuliyyətdən yaxa qurtara bilməyəcəkdir.

Bu məsuliyyətdən xəbərdar olmayan valideynlər övladlarının dünya və axirətlərini ziyan edərlər. Dindən, imandan məhrum övladlar əbədi həyatda: "Ya Rəbbim! Məni iman və Qurandan məhrum edən, məni Allahdan qafil qoyan və əxlaqdan məhrum böyüdən, müsəlman olaraq yaradıldığım halda məni İslamdan uzaq tutan bu valideynlərimdir. Qətl etdikləri imanıma görə onlardan şikayətçiyəm." -deməzlərmi? Axı hər bir övlad dünyaya gələndə və anasının qucağına təslim ediləndə İslam fitrəti üzrə yaradılmış olur. İslamiyyəti, dolayısı ilə, doğruluğu, dürüstlüyü, alicənablğı, əxlaqı, bir sözlə mələk kimi gözəl xüsusiyyətləri yaşayacağı qabiliyyətdə yaradıldığı halda valideynlərinin düşüncəsinə görə şəkilləndirilən övladın şikayət etməyə haqqı yoxdurmu?

Bu il yay tətilinin mübarək üç ayların qeyd edildiyi zamana düşməsi Allahın əmanəti olan övladlarımızın iman və İslam üzrə tərbiyə edilməsində bizim üçün bir fürsətdir. Üç aylar fürsət günləridir, çox bərəkətli bir mənəvi qazanc mövsümüdür. Bu fürsəti yaxşı dəyərləndirmək ümidi ilə... Unutmayaq ki, övladlarımıza verəcəyimiz ən qiymətli hədiyyə dünya və axirət səadətidir.

Türkiyə Cümhuriyyəti Ə. M. Hüdayi Vəqfinin
Xarici Ölkələr Üzrə Xidmət Sektorunun rəhbəri

Dr. Alican Tatlı:
EHTİYAC SAHİBLƏRİNƏ YARDIM ETMƏK DİNİMİZİN ƏMRİDİR!

Alican Tatlı kimdir?

1964-cü ildə Girəsun Bulancakda dünyaya gəlib. İbtidai təhsili Girəsun Cümhuriyyət ilk Öyrətim məktəbində tamamladıqdan sonra 1975-ci ildə Girəsun İmam-Xətib liseyinə daxil oldu. Orta məktəbi və liseyi burada oxudu. 1983-cü ildə Mərmərə Universiteti İlahiyyat Fakültəsinə qəbul oldu. 1987-ci ildə fakültəni bitirdi və Mərmərə Universiteti Sosialoji Elmlər İnstitutunun "Təməl İslami Elmlər" bölümündə "hədis" sahəsində magistraturaya daxil oldu. 1989-cu ildə magistraturanı bitirib doktorluq dissertasiyasına başladı. 1996-cı ildə doktor adına layiq görüldü. Evlidir. 1996-2001-ci illərdə Azərbaycanda Gəncliyə Yardım Fondunun təhsil koordinatoru olaraq çalışdı.

Müxtəlif kitabları və bir neçə dildə məqalələri nəşr olunmuşdur.

İrfan: *Əfəndim, bir çox Afrika ölkələrində oldunuz. Dəfələrlə getdiyiniz bu coğrafiya ilə bağlı, oradakı insanların həyat tərzi ilə əlaqəli sual soruşulsa, hansı tablonu çəkərdiniz?*

Alican Tatlı: Adətən bu cür suallar verilərkən sanki bir şəhərdən və ya bir ölkədən bəhs edirmiş kimi soruşulur. Halbuki Afrika əlli dörd ölkədən ibarət böyük bir qitədir. Hər birinin fərqli xüsusiyyətləri var. Qitənin ekvator boyunda yer alan ölkələri, şimal və cənub yarımkürəsində olan ölkələri bir-birindən fərqlənir. Hər bir ölkənin öz daxilində də müəyyən müxtəlifliklər var. Paytaxt və böyük şəhərlərdə həyat tamam fərqli

olduğu halda kəndlərdə bambaşqa bir həyatla qarşılaşırsınız.

Qocaman bir qitə əsrlərlə istismara məruz qalıb. Müstəmləkə illərində onlarla nəsil dəyişib. İstismar olunmaq insanların geninə işləyib bir növ. Yalnız əllərindəki zənginlikləri deyil, sanki düşünmə qabiliyyətləri də istismar olunub. Bunun nəticəsi də həyat tərzlərinə əks edib. İnsanların sabaha aid heç bir düşüncələri yoxdur. Həyat bu gündən ibarətdir onlar üçün. İstehsal, ticarət, təhsil, bir sözlə hər şey "yalnız bu gün" fəlsəfəsinə dayanır.

Şəhərlərdə dar bir çərçivədə müasir həyat sonra tənəkədən düzəlmiş evlərdən ibarət kənar məhəllələr. Daha sonra tənəkənin də olmadığı qamış və kərpic evlər. Burada ev olaraq ifadə etdiyimiz yerlər sadəcə içinə girib yatdıqları məkanlardır. Onların həyatında bizdəki kimi mətbəx, zal, yataq otağı və s. yoxdur. Yeməyi çöldə yeyir, küçədə oturur və ev dedikləri yerdə də yatırlar.

İrfan: *Əziz Mahmud Hüdayi Vəqfinin Afrika xidmətləri, oranın insanına əl uzatması hər zaman təqdirlə qarşılanmışdır. Belə bir sual vermək istərdik: nə üçün Afrika? Hansı duyğular, hansı yaşanmış hadisə sizi belə bir işə sövq etdi?*

Alican Tatlı: Əziz Mahmud Hüdayi Vəqfi qurulduğu gündən etibarən imkanları daxilində hər bir ehtiyac sahibinin yanında olmağa çalışan vəqfdir. Həmçinin özündən yardım istəyən heç bir ehtiyac sahibini də geri çevirməmişdir. Bəlkə zaman-zaman istəyənin tələbini tamamən qarşılaya bilmədiyi də olmuşdur, amma heç kimə əsla laqeyd qalmamışdır.

Afrikadan da vəqfimizə yardım tələbləri gəldikdə ümmət olma şüuru və insanlıq adına əl uzatmağın zəruri olduğu qərarına

Qocaman bir qitə əsrlərlə istismara məruz qalıb. Müstəmləkə illərində onlarla nəsil dəyişib. İstismar olunmaq insanların geninə işləyib bir növ. Yalnız əllərindəki zənginlikləri deyil, sanki düşünmə qabiliyyətləri də istismar olunub. Bunun nəticəsi də həyat tərzlərinə əks edib. İnsanların sabaha aid heç bir düşüncələri yoxdur. Həyat bu gündən ibarətdir onlar üçün. İstehsal, ticarət, təhsil, bir sözlə hər şey "yalnız bu gün" fəlsəfəsinə dayanır.

gəldik. Dünyanın digər bölgələri ilə müqayisədə buradakı aclıq, susuzluq, sağlıq problemləri və təhsil ehtiyacı daha bərbad vəziyyətdə idi və təcili yardım etmək lazım gəlirdi. Bir tərəfdən bu problemlər vardı, digər tərəfdən missionerlərin təzyiqləri altında axirətlərini qurtarmağa cəhd edirdi müsəlmanlar. Özlərinin dediyi kimi aclığa və susuzluğa dözmək olardı. Bunlar yalnız dünyaya aid ehtiyaclar idi. Ancaq missionerlər tərəfindən qəlblərindəki imanları əldən gedərdisə nə dünyaları qalardı, nə də axirətləri. Bu duyğularla yardım istədilər, Hüdayi Vəqfi də imkanları nisbətində onlara əl uzatdı.

İrfan: *Vəqfin Afrika xidmətləri hansı sahələri əhatə edir və daha çox hansı ölkələrə yardım əli uzadılmışdır?*

Alican Tatlı: Afrika yardımlarını müəyyən başlıqlarla sıralamaq mümkün deyil. Qarşınızdakı adamın ehtiyacına görə sizin yardımınız da hər sahədən olmaq məcburiyyətindədir. Bu, bəzən acları doydurmaq üçün ərzaq paylama kampaniyası olur. Bəzən su qıtlığını aradan qaldırmaq

üçün artezian qazmaq şəklində özünü göstərir. Bəzən paltar paylayırıq, bəzən tibbi ləvazimatlar...

Ancaq Afrika insanı üçün ən mühüm yardım təhsil yardımıdır. Çünki aclığı, susuzluğu, tibbi yetərsizliyi də təhsillə aradan qaldırmaq mümkündür. Hakim millətlərlə məhkum millətlər arasındakı fərq yalnız yetişmiş bir ovuc insandır. Nəticə etibarilə Afrikada bir ovuc təhsilli insan yetişdirə bilsək, o ölkəyə və millətə ən böyük yaxşılığı etmiş olarıq.

Ölkələrdəki şərtlərə görə bəzi yerlərdə məktəb tikmə və işlətmə fəaliyyəti göstərərkən bəzilərində qurulmuş, işləməkdə olan məktəblərə dəstək oluruq. Bir çox ölkənin məscidlərində azyaşlıların təhsilini dəstəkləyərək bir azcıq da olsa təhsil xüsusunda faydalı olmağa çalışırıq. Həmçinin bir çox Afrika ölkəsinə öz dillərində kitablar göndərərək insanların istifadəsinə veririk. Bu kitablar bir çox ölkələrdə dərs kitabı olaraq oxudulur.

İrfan: *Sizcə müxtəlif ölkə və qurumlardan edilən yardımlar Afrika insanını xilas etməyə kifayət edəcəkmi? Afrika ölkələrinin öz ayaqları üzərində durması üçün hansı addımlar atılmalıdır?*

Alican Tatlı: Afrika xalqı hər zaman müxtəlif vədlərlə onları müstəmləkəyə çevirən ölkələrdən zərər görmüşdür. Nə zaman yardım üçün əllərini uzatsalar, itirən tərəf özləri olmuşlar. Həm xristianlar, həm də müsəlmanlar bu vədlərin boş olduğunu, onlardan heç bir fayda görməyəcəklərini gec də olsa başa düşüblər. Nəhayət Afrikalı müsəlmanlar "din qardaşlarımız bizi bu vəziyyətdə qoymazlar" deyə müsəlman ölkələrinə əl açıblar. Onlar da yardım ediblər. Amma bu yardımdan necə istifadə edəcəkləri, bununla necə mədəniyyət formalaşdıracaqlarını başa salmayıblar. Bu məsələdə onlara yardım etməyiblər. Afrikalının aldığı yardım xərcləndikdən sonra bir növ əlaqə də kəsilib. Bu gün Afrika insanı həm yardım edəcək, həm də

Afrika insanı üçün ən mühüm yardım təhsil yardımıdır. Çünki aclığı, susuzluğu, tibbi yetərsizliyi də təhsillə aradan qaldırmaq mümkündür. Hakim millətlərlə məhkum millətlər arasındakı fərq yalnız yetişmiş bir ovuc insandır. Nəticə etibarilə Afrikada bir ovuc təhsilli insan yetişdirə bilsək, o ölkəyə və millətə ən böyük yaxşılığı etmiş olarıq.

bu yardımları necə dəyərləndirəcəkləri mövzusunda özlərinə kömək edəcək ölkələr axtarır.

Türkiyə Cümhuriyyəti orada yaşayan möhtac insanlara əlindən gələni etməyə cəhd göstərdi. Bir qeyri-hökumət təşkilatı olan Hüdayi Vəqfi bu mənada üstünə düşən vəzifəni yerinə yetirir. İstər Türkiyədən, istərsə digər ölkələrdən Afrikaya çox yardım edilir. Ancaq bu yardımlar onların nə aclığını, nə susuzluğunu, nə də digər ehtiyaclarını tamamən aradan qaldırmağa kifayət etməyəcək. Bu ehtiyaclar yalnız afrikalı insanların maarifləndirilməsi ilə aradan qalxacaq. İnsanlar maariflənməlidirlər ki, öz zənginliklərinə sahib çıxsınlar, o zənginlikləri maddi və mənəvi gücə çevirsinlər. Savadlansınlar ki, öz ehtiyaclarını özləri qarşılaya bilsinlər. Bir sözlə, Afrikanın öz ayaqları üzərində dura bilməsi üçün öz ayaqları üzərində dura biləcək qədər savadlı afrikalıya ehtiyac var.

İrfan: *Aclıq və səfalət içində qıvranan bu coğrafiyaya qarşı bizə hansı məsuliyyət düşür?*

Alican Tatlı: Hər şeydən əvvəl bir insan olaraq bu dünyanın nemətlərini paylaşmaq, əlimizdə olandan olmayanlara vermək bir insanlıq vəsfidir. Tutduğu ovunu başqasıyla paylaşmama eqoizmi göstərmək insanın vəsfi deyil.

Üstəlik ehtiyac sahibinin ehtiyacını qarşılamağı dinimiz əmr edir. Allah-Təala möminləri qardaş adlandırır. Rəsulullah (s.ə.s) ümmətini bir binanın kərpiclərinə bənzədir. Başqa bir ifadəsində möminləri bir-birindən məsul tutur. Məsul olduğumuzun hər an yanında olmalıyıq. Bu bərabərlik bəzən göndərəcəyimiz bir yardımla, bəzən yerimizə göndərdiyimiz bir yardımçı şəklində olacaqdır.

Hər şeydən əvvəl onları bir müsəlman qardaş olaraq qəlbimizdə daşımalı, ehtiyac içində olduqlarını bilməli, imkanlarımız ölçüsündə də yardım etməliyik. Yaşadığımız yer məkan olaraq Afrikadan çox uzaqdadır. Hər birimiz öz yardımlarını şəxsən oraya aparma imkanına sahib deyil. Ancaq oralara gedən vəqf, dərnək və təşkilatlarla yardımlarımızı göndərməliyik. Afrikalı hər hansı bir gənci özümüzə qardaş bilib daha yaxşı imkanlara sahib ölkələrdə oxuda bilərik.

İrfan: *Sizə Afrikada ən çox təsir edən bir hadisəni oxucularımızla paylaşardınızmı?*

Alican Tatlı: Afrikanın yardıma ehtiyacı təzəliklə yaranmadı. İstismar edildiyi gündən bəri yardıma möhtacdır. Osmanlı dövləti son zamanlarına qədər imkansız şərtlər altında olsa da Afrikaya yardımı kəsməyib.

İlk Qana ziyarətimdə Cümə namazı qıldığımız məsciddə bir Qurani-Kərim gördüm. Xarici görünüşü digərlərindən fərqlənməyən köhnə bir Quran idi. Maraqla içini açdım, Osmanlı xətti idi. Möhürünə baxanda II Əbdülhəmid yazıldığını gördüm. Anladım ki, əcdadımız ən çətin anlarda belə buralara laqeyd qalmayıb.

Bəlkə də bir çox başqa yardımlarla birlikdə onlara Quran da göndərib.

Başqa bir təsirli hadisəni də Efiopiyada yaşadım. Harar bölgəsində bir muzeydə ərəb dilində əllə yazılmış bir çox qiymətli qədim əsərin içində osmanlıca yazılmış bir məktub çox diqqətçəkici idi. Qurtuluş Savaşında Osmanlı əsgərlərinə dəstək olmaq üçün Türkiyəyə göndərdikləri yardımı təsdiqləyən bu vəsiqə çox mənalı idi. Deməli, 5000 km. uzaqda eyni duyğu və ruhu yaşayan, imkanlarını bizimlə paylaşan qardaşlarımız vardı.

1875-ci ildə Portuqaliya istilasına qarşı Osmanlıdan yardım istəyən buradakı müsəlmanlara, Osmanlının göndərdiyi əsgərlərin nəvələrindən 200 türk ailənin Hararda hələ də var olması və bizə: "uzun zamandır bizi yalnız qoydunuz. Nə olar indi yardım əlinizi və qayğınızı bizdən əsirgəməyin", -dəmələri bizi çox duyğulandırmışdı.

İrfan: *Son olaraq ürək sözlərinizi buyurun lütfən!*

Alican Tatlı: Türkiyə aşiqi qanalı Nəsruddin qardaşımızın bu sözləri hamımızın ürək sözü olsun: "Lütfən, mədəniyyət və xidmət yollarını bizə öyrətmək mövzusunda xəsislik etməyin. Çünki əkdiyiniz toxumların cücərdiyini görmək bizim, yəni Afrikanın qurtuluş ümidlərini artırır".

İrfan: *Dəyərli vaxtınızı bizə ayırdığınız üçün təşəkkür edirik!*

Alican Tatlı: Mən də öz növbəmdə sizə təşəkkür edirəm!

Reportajı aldı: Tural Səlimov, Rəhman Nuriyev

Məmməd AFİQ

"ALLAH BABA" DEMƏK OLMAZ

Bu gün daha çox azyaşlı uşaqlara Allahı sevdirmək və ya Allahın böyüklüyünü təlqin etmək məqsədi ilə "Allah baba" dedirdildiyinin hamımız şahidi olmuşuq. Bəs bu nə dərəcədə doğrudur? Uca Yaradan Qurani-Kərimin İxlas surəsində özü haqda belə buyurur: **"De: "O Allah Təkdir! Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"** (əl-İxlas, 1-4) "Allah baba" deməyə vərdiş edən bir uşağın şüur altına əslində Allahın şəklini çəkmiş oluruq ki, bu da son dərəcə təhlükəlidir. Həmçinin, qeyd etmək lazımdır ki, xristianlıqda Allah-Təala üçün "Ata", "Atanız Allah" ifadələri vardır. Böyük ehtimalla "Allah Baba" ifadəsi dilimizə oradan yol tapmışdır. Qətiyyətlə qeyd etməliyik ki, Allahı tərif edərkən "ata, baba" kimi sözlərdən istifadə etmək olmaz. Allah-Təala yaratdığı heç bir varlığa bənzəməz. Şura surəsində buyurulduğu kimi **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11) Allah yaratdığı varlıqlara bənzəmədiyi üçün biz insanların da Onu hansısa sonradan yaradılmış bir varlığa bənzətməyimiz və dilimizlə ifadə etdiyimiz sözlərdə bu kimi səhvlərə yol verməyimiz qəbul edilməzdir.

Nəticə: Allah demək doğru, Allah Baba demək yanlışdır.

ƏVVƏLCƏ ÇÖRƏK, YOXSA QURAN?

İctimaiyyətdə tez-tez kiminsə belə dediyini eşidirik: "Çörək Qurandan əvvəldir, çörək haqqı filan iş belə olub".

İlk növbədə bilmək lazımdır ki, Quran Allahın kəlamıdır və İslam inancına görə Onun kəlamı özü qədər qədimdir. Əzəli və əbədidir. Kitab halına sonradan gətirilmiş olması onun sonradan olduğuna dəlalət etməz. Nəticə etibarilə Quran yaradılmış hər şeydən əvvəldir. Eyni zamanda burada "çörək haqqı" deyərək and ifadəsi vardır ki, bu cür and içmək də doğru deyil. And içmək yalnız Allahın adlarını söyləyərək gerçəkləşmiş olur. Bunun əksi haramdır. Həzrət Peyğəmbər (s.ə.s) buyurmuşdur: *"Sizdən biri and içəcəyi zaman ya Allaha and içsin, yaxud da sussun!"* (Müslim, Eyman, 1; İbn Macə, Kəffarə, 2)

Nəticə: Çörək Qurandan əvvəldir demək və çörəyə and içmək yanlışdır. Quran Allahın kəlamıdır, əzəli və əbədidir.

Saleh ŞİRİN
salehsirin@hotmail.com

TÖVHİDİ ANLAMAQ

Tövhid - Uca Allahın zatını zehinlərdə təsəvvür və xəyal edilən hər şeyin fövqündə tutmaq deməkdir. Bu da üç şeylə; 1) Allahın Rububiyyətini (yaratmaq, diriltmək, kainatdakı bütün işləri idarə etdiyinə inanmaq və) bilməklə, 2) Vəhdaniyyəti, Birliyini təsdiq etməklə, 3) Ona heç bir şeyi ortaq qoşmamaqla olur.

Tövhid - birləmək, bir Allahdan başqa ilah olmadığına inanmaq deməkdir. Hər yerdə və hər şeydə Allahdan başqa təsir və hakimiyyətin olmadığını anlamaq, bilmək və buna inanaraq yaşamaq deməkdir.

Termin olaraq isə tövhid Allahı zatında, sifətlərində, isimlərində və feillərində birləmək, Ona heç bir şeyi ortaq qoşmamaqdır. Tövhid kəlməsi "lə ilə-hə illəllah"dır. Yəni "Allahdan başqa ilah yoxdur" deməkdir. Uca Rəbbimiz buyurur: **"(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir ilah yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" - deyə vəhy etməyək."** (əl-Ənbiya 25).

Allahdan başqa ibadət / qulluq edilməyə, Onun xaricində mütləq olaraq itaət edilməyə və boyun əyilməyə layiq heç kim və heç nə yoxdur. Və diqqət edilməsi gərəkən bir şey var ki, kəlmeyi-tövhidi söyləyənlər, əvvəlcə Allahdan başqa bütün ilahları rədd etməli və ilah olaraq sadəcə Allahı qəbul etməlidir.

Allahı yeganə ilah, Rəbb və güc-qüdrət sahibi olaraq tanımaq, birliyini təsdiq və etiraf etmək, hər cür ortağı Ondan uzaq tutmaqla gerçəkləşən tövhid İslam dininin ən əhəmiyyətli xüsusiyyətidir.

Tövhidin özəyində Allahdan başqa ilah olaraq tanınan varlıqların hamısının inanc dünyasından təmizlənməsi, atılması vardır. Bütün güc və qüvvətin, izzət və şərəfin, böyüklük və səltənətin yalnız Allahda olduğuna inanmaq tövhidin ruhudur.

Tövhid - iman gətirənlərlə küfr edənləri, inananlarla inkar edənləri bir-birindən ayıran ən aydın vəsfdir. Müvəhhidlərin paroludur. Buna görə də bütün peyğəmbərlər insanları əvvəlcə Allahın birliyinə, tövhidə, Allahdan başqa ilah tanımamağa və digər bütün ilahları rədd etməyə, fani varlıqlar qarşısında alçalmamağa, boyun əyməməyə və əyilmə-

məyə dəvət etmişlər. İnsana lütf edilən yaradılmışların ən üstünü olma şərəfi, ancaq bu tövhid şüuruyla qoruna bilər.

Bir şəxs "lə iləhə illəllah" deməklə əslində bunları söyləmiş olur: "Allahdan başqa ibadət ediləcək, sitayiş ediləcək, qorxulacaq, çəkinəcək, bel bağlanacaq, əl açıb yalvarılacaq, dua və yalvarışlara cavab verib gərəyini yerinə gətirəcək, sığınılacaq başqa biri yoxdur." Kəlmeyi-tövhidin mənası, açıqlaması bu deməkdir!

Hz. Əli (r.a) deyir ki, Rəsulullah (s.ə.s) belə buyurdu: *"Bir şəxs dörd şeyə inanmadıqca mömin sayılmaz: Allahdan başqa ilah olmadığına və mənim Allahın qulu və elçisi olduğuma, məni bütün insanlara haqla göndərmiş olduğuna şəhadət etmək, öldükdən sonra təkrar dirilməyə və qədərə inanmaq."* (Tirmizi).

Yenə Rəsulullah (s.ə.s) buyurur: *"Hər kim Allahdan başqa ilah olmadığını bilərək ölərsə, cənnətə girər"* (Müslim, Buxari, Əbu Davud).

Hədisi-şəriflərdən tövhidin əhəmiyyətini açıq şəkildə görməkdəyik. Əlbəttə ki, sadəcə, quru bir söz olaraq "lə iləhə illəllah Muhammədur-rasulullah" deməklə iş qurtarmır; əksinə, iş bundan sonra başlayır. Kəlmeyi-tövhidə inanan insan Allah və Rəsulunun əmr etdiklərini etməli, qadağan etdiklərindən də çəkinməlidir. Qurani-Kərimdə Uca Yaradanımız belə buyurmaqdadır: **"İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" -demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri (keçmiş ümmətləri) də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da (həqiqi iman sahiblərini də), yalançıları da çox gözəl tanıyar! Yoxsa pis əməllər edənlər (bizdən) əzabımızdan sovuşa (qaça) biləcəklərini (etdikləri pis işlərin cəzasını görməyəcəklərini)mi güman edirlər? Onlar necə də pis (yanlış) mühakimə yürüdürlər (düşünürlər, hökm verirlər)!"** (əl-Ənkəbut 2-4). Başqa ayələrdə belə buyurulur: **"Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar."** (İsra 19). **"İman gətirənlər və yaxşı işlər görənlər isə, cənnət xalqlarıdır və orada əbədi olacaqlar."** (Bəqərə 82).

Tövhidin özəyində Allahdan başqa ilah olaraq tanınan varlıqların hamısının inanc dünyasından təmizlənməsi, atılması vardır. Bütün güc və qüvvətin, izzət və şərəfin, böyüklük və səltənətin yalnız Allahda olduğuna inanmaq tövhidin ruhudur.

Tövhid sözlə deməklə gerçəkləşmir. Lüzumunu yerinə yetirməklə və tövhidi pozan davranışlardan uzaq durmaqla həqiqi tövhid gerçəkləşir. Tövhidi qorumaq, tövhidin dəyərini bilmək lazımdır. Tövhidin zədələnməsinə qətiyyən imkan verməmək lazımdır. Düşünüb, anlayıb tövhidi zədələyəcək davranışlardan da qəti şəkildə uzaq durmaq gərəkdir. Söylənən sözlərin, görülən əməllərin nə ifadə etdiyini düşünərək söylənməsi və hərəkət edilməsi əhəmiyyət daşıyır. Nə söylədiyimizi və nə etdiyimizi yaxşı bilməliyik. Etdiyimiz işlər Allahın rizasına, Rəsulunun sünnəsinə və Quranın əxlaqına uyğundursa, davam etməli; əgər etdiyimiz işlər və danışdığımız sözlər Allahın rizasına, yəni İslama, İslamın ruhuna tərsdirsə, dərhal onu tərk etməli və tövbə edərək özümüzü düzəltməliyik. Allaha qulluq vəzifəmizi kamil yerinə yetirmək, qurtuluşa çatanlardan olmaq istəyiriksə, bundan başqa yolumuz yoxdur! **"De ki, şübhəsiz mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür."** (əl-Ənam 162) deməyimizi və bu şəkildə yaşamağımızı Rəbbimiz Allah əmr etməkdədir.

Eldar KƏRIMOV
canyanar@yahoo.com

BALIQ SATAN QOCA

Yay fəsli özünü vaxtından əvvəl göstərmişdi. Havalar ilk gündən daha çox isinməyə başlamışdı. Ətrafındakı dost-tanışlar və bazar yoldaşları isti paltarlarıyla çoxdan vidalaşmışdılar. Küçələrdə insanlar yarılüt, üryan gəzişirdilər. O isə hələ özündə cəsarət tapıb başındakı yun yaylığı, ipək yaylıqla əvəzləyə bilmirdi. Düşünürdü ki, insanlar onu lağa qoyub güləcəklər. Ayağındakı rezin çəkmələr bədəninin hərarətini daha da artırırdı. Yaşı xeyli irəlilədiyi üçün geyiminə bir o qədər də fikir vermirdi. Evdəki uşaqları da -geyiminə fikir ver- dedikləri zaman -bu gündən sonra məni kim bəyənəcək- deyib işi zarafata salırdı. Bir neçə il əvvəl həyat yoldaşı Haqqın rəhmətinə qovuşmuşdu. Böyük bir ailənin yükünü öz çiyinlərində daşımaq onun taleyinə çevrilmişdi. Əlindəki böyük zənbil hər gün birlikdə olduğu ən sadiq dostu idi. Ailəsinin ruzisini o sehrli zənbilin içindəki quru balıq və yumurtaları sataraq qazanırdı. Hər gün evə getdiyi zaman balaca nəvəsi; -nənə, səndən balıq iyi gəlir- deyib yaxın durmurdu. Nəvəsinin ondan qaçmaması üçün ətirli sabunlar alıb onlarla yuyunurdu. Ancaq bütün bunlara baxmayaraq, balıq iyi ondan əl çəkmirdi ki, çəkmirdi.

Yenə adi günlərdən bir gün idi. Rayondakı müştərisi satmaq üçün bir neçə kilo balıq və bir neçə yumurta göndərmişdi. Səhərin alaqaranlığında malları gətirən avtobusun qabağına çıxmışdı. Axşamdan sürücünün adını və avtobusun nömrəsini yazdığı kağızı əlində bərk-bərk sıxıb saxlamışdı. Avtovağzalın içərisində gəzişən vəzifəlilərdən başqa heç kim yox idi. Sadəcə taksi sürücüləri tək-tük görünməyə başlayırdılar. Hava yavaş-yavaş aydınlanırdı. Bir müddət intizardan sonra uzaqdan bir avtobus göründü. Qoca avtobusun nömrəsini əlindəki kağızda yazılan nömrəylə tutuşdurduqdan sonra yeyin addımlarla sürücüyə yaxınlaşdı. Yorğunluğu hərəkətlərindən bəlli olan sürücü yük baqajından sərnişinlərin ağır çantalarını çıxarıb sahiblərinə verirdi. Sürücü qocanı uzaqdan görüb təbəssüm etdi. Demək olar ki, hər gün gördüyü bu

zəhmətkeş qocanı tanımışdı -yenə səhərin gözü açılmamış buraları kəsdirib durmusan, balıqlarının iyi də bütün avtobusu bürüyüb.- deyərək, qocaya ərkyana zarafat etməyə başladı. Qoca da heç kefini pozmadan –neyniyim, çörəyim ondan çıxır - deyib, baqajdan balıq zənbilini və yumurta vedrəsini götürdü. Belini çətinliklə dikəldib şəhər avtobuslarına tərəf yön aldı. Yenə həmişəki kimi avtobusa minmək istəmirdi. Ailənin şəxsi maşını olmaması işini çətinləşdirirdi.

Səhər tezdən insanların işə və dərsə getdiyi bir vaxtda avtobusun içindəki sıxlığı fikirləşdi. Axı o avtobusa minərminməz hər kəs ondan uzaq durur və dodaqlarının altından ona baxıb nə isə deyir, üzlərini turşudurdular. Bu vəziyyət onunçün nə qədər çətin olsa da avtobusa minmək məcburiyyətində idi. Bir günlük qazancını taksiyə verib getməyə imkanı yox idi. Özünə toxtaqlıq verib, -həmişə necə, bu gün də elə- deyərək qədəmlərini avtobusun pilləsinə qoydu. Adət etdiyi mənzərə ilə yenidən qarşılaşacağının fərqində idi. Başını qaldırıb insanların üzünə belə baxmırdı. Amma yanındakı adamların burunlarını əlləri ilə tutmalarını hiss edir və dodaqlarının altında bu nə iydir dediklərini eşidirdi. Bazara çatmağa hələ yarım saatlıq yol vardı. Havanın isti olması balıq iyinin ətrafa yayılmasına münbit şərait yaratmışdı. Qoca əlindəki balıq zənbilinin və yumurta vedrəsinin ağır olmasına baxmayaraq utandığından onları yerə də qoymamışdı. Balıq iyi avtobusu tamamilə bürümüşdü. Sərnişinlər iradlarını açıq şəkildə bildirməyə və belələrini avtobusa mindirdiyi üçün sürücünü danlamağa başlamışdılar. Qoca isə utandığından başını qaldırıb ətrafa baxmırdı. Onun yaşadığı həyatın çətinliklərini başa düşməyən insanlarla mübahisə etməyə dəyməzdi. Elə bu fikirlərlə özünə təskinlik verirdi ki, bir əlinin yüngülləşdiyini hiss etdi. Yaraşıqlı gənc bir oğlan yanındakı qızın yanından ayrılıb qocanın əlindəki zənbildən tutumuşdu. Qocanın üzünə təbəssüm edib, ondan öz yerində əyləşməsini istəyirdi. Qoca bu vəziyyətdən çox təsirlənmişdi. Gənc oğlanın oturduğu yerə yaxınlaşırdı ki, tanış bir sima diqqətini çəkdi. Qoca gözlərinə inanmamışdı. Başını qaldırıb bir daha baxdığı zaman ona kömək edən oğlanın yanında oturan cavan qızın öz doğma qızı olduğunun fərqinə vardı. Qızı anasını uzaqdan görüb sevdiyi oğlanın yanında üzünü yana çevirmişdi. Anası ona tərəf yaxınlaşdıqca üzündəki qəzəb daha da çoxalırdı. Özünü gizlədəcək yer axtarırdı. Ancaq qaçacaq yer yox idi. Anası onu görüb qızım dediyi zaman sevdiyi oğlanın yanında biabır olacaqdı. Qoca işin nə yerdə olduğunu çoxdan başa düşmüşdü. Özünü o yerə qoymadan oğlanın qalxdığı boş oturacaqda, qızının yanında oturdu. Sanki qızını heç tanımırdı. Üzünü oğlan tərəfə çevirib, təşəkkür etdi və dua etməyə başladı. Oğlan qocanın sözləri qurtararqurtarmaz -dəyməz anacan bu bizim borcumuzdur. Mənim də anam sizin kimi zəhmətkeş bir qadındır. O da hər gün balıq sataraq məni universitetdə oxudur. Sizin balıqların iyi başqalarına xoş gəlməsə də mənə çox doğmadır. -dedi. Doğma anasının və sevdiyi oğlanın bu səmimi söhbəti qızın qəlbindəki peşmanlıq hislərini oyatmışdı. Gözlərində gilələnib yanağından süzülən yaşlar ovuclarına tökülürdü. Qəfildən qocanı qucaqlayıb bərkdən "ana" deməsi bütün avtobusdakı insanları təəccübləndirmişdi. Oğlan da sevgilisinin bu hərəkətinə məəttəl qalmışdı. Elə bu vaxt, ana qırış düşmüş əlləriylə qızının göz yaşlarını silib "Mən səninlə fəxr edirəm, sən də mənimlə utanma qızım! utanma!" -deyirdi.

Müşfiq XƏLİLOV

BORC ALIB-VERMƏK

Uca Allah bütün insanları bir-birlərinə möhtac olaraq yaratmışdır. Malı, mülkü, vəzifəsi və rütbəsi nə olursa olsun, hər insan başqasına möhtacdır. Bu baxımdan sıxıntı içərisində olan bir müsəlmanın sıxıntısının ortadan qalxması üçün imkanlı bir kimsədən borc alması təbii haldır. Elə isə gəlin görək borc haqqında İslamın görüşü necədir? Hər mövzuda söz söyləyən İslam dini təbii ki, borc alıb-vermək haqqında da bəhs etmişdir. Məsələn, Uca Allah bir ayədə belə buyurur: **"Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinizə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızda bir nəfər katib ədalətlə yazsın!"**[1] Ayədən də başa düşüldüyü kimi birisinə borc verdiyimiz zaman, daha sonra bir problem çıxmaması üçün yazmağımız məsləhətdir. İnsan oğlu unutqan varlıqdır. Yaşımızdan asılı olmayaraq bəzən keçmişdə baş vermiş bir hadisəni unudur və ya qarışdıra bilirik. Bu səbəblə yazmağa ehtiyac yoxdur, yadımdan çıxmaz kimi ifadələrlə özümüzü arxayın etməyək. Borcları yazaq və şahid tutaq.

Bir möminin çətinlik içərisində olan bir mömin qardaşına borc verməsinə Qurani-Kərimdə qərzi-həsənə deyilir. Belə ki, Uca Allah bu barədə buyurur:

"Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz (dünyada gördüyünüz işlərin əvəzini almaq üçün) Onun hüzuruna qaytarılacaqsınız."[2]

"Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat (birə on, yaxud birə yeddi yüz) artırsın?! Onu həm də çox qiymətli bir mükafat (Cənnət) gözləyir!"[3]

Bu ayələrdən də başa düşüldüyü kimi darda qalan, sıxıntı içərisində olan kimsələrə Allah rizası üçün borc vermək,

onların problemini həll etmək böyük savabdır. Cənnətə getməyə vasitə olan bir əməldir. Ancaq bütün bunlarla bərabər borc alan kəs də borcunu geri qaytarma xüsusunda diqqətli olmalıdır. Borcunu geri qaytarmağa imkanı olduğu halda qaytarmayan və ya gecikdirənlər haqqında Peyğəmbərimizin (s.ə.s) bir çox hədisi-şərifi vardır. Onlardan bəziləri belədir: *"(Borclunun) borcunu qaytarmağa imkanı olduğu halda üzrsüz olaraq borcunu gecikdirməsi zülmdür"*[4] Yəni bu hərəkəti ilə o, həm borc verənə maddi olaraq zülm etmiş olur, həm də özünə zülm etmiş olur. Belə ki, bu əməli ilə həmin adam oğurluq etmiş kimi günah qazanır. Necə ki, başqa bir hədisi-şərifdə Rəsulullah (s.ə.s) buyurur. *"Kim (daha sonra) geri qaytarmamaq niyyətiylə borca girərsə, Allahın hüzuruna oğru olaraq çıxar."*[5]

Borcun ödənməsi mövzusu o qədər əhəmiyyətlidir ki, Peyğəmbərimiz (s.ə.s) borcu olan birinin cənazəsi gətirildikdə onun cənazə namazını qılmaz, ancaq bir adam onun borclarını ödəməyi üzərinə alarsa o zaman namazını qılardı.[6]

Borc verən kəslər aşağıdakı bu maddələrə diqqət etməlidirlər.

1. Borc verən adam borcu sırf Allah rizası üçün, mömin qardaşının çətinliyini aradan qaldırmaq niyyəti ilə verməlidir.

2. Borc verən adam borclunu çox sıxışdırmamalıdır. Əgər borclu həqiqətən borcunu geri qaytara bilmirsə, ona möhlət verməlidir.

3. Borc verən varlı, borc alan isə kasıbdırsa və borcunu ödəmə imkanı yoxdursa borc verənin alacağını sədəqə yerinə sayması çox yaxşı olar. Ayədə buyurulur:

"Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona sədəqə olaraq bağışlamağınız daha yaxşıdır!"[7]

"Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz (dünyada gördüyünüz işlərin əvəzini almaq üçün) Onun hüzuruna qaytarılacaqsınız."

4. Borc verən borclunu incitməməlidir. Borcunu başa qaxmamalıdır.

Borc alan kimsənin diqqət edəcəyi xüsuslar isə bunlardır:

1. Çox zəruri olmadıqca borca girməməlidr.

2. Ancaq zəruri ehtiyaclar üçün borc almalıdır.

3. Aldığı borc pulu lüks və israf sayılacaq işlərdə sərf etməməlidir.

4. Aldığı borcu geri qaytarmaq üçün işləməli, tənbəllik etməməlidir.

5. Borcunu gecikdirməməlidir. İmkan varsa, dərhal verməlidir.

Həzrət Peyğəmbər bir hədisi-şərifində buyurur: "Kim geri qaytarmaq niyyətiylə insanlardan borc mal alarsa, Allah o borcun ödənməsinə yardımçı olar. Kim geri qaytarmamaq niyyətiylə insanlardan borc mal alarsa, Allah da onun aldığını məhv edər."[8]

---

1. Bəqərə, 282.
2. Bəqərə, 245.
3. Hədid, 11.
4. Buxari, Müslim, R.S. Tərc. C. 3, səh. 181, № 1642.
5. İbn Hıbban, Kütüb-i Sittə, (Hədis Ens.) C. 17, səh, 296, №: 749.
6. Tirmizi, Cənaiz, 68.
7. Bəqərə, 280.
8. Buxari, İstiqraz, 2.

Vəsiyyətini cibində gəzdirən adam:
QOY GƏNCLƏRİMİZ RUZİNİN ARDINCA DEYİL, RƏZZAQIN ARDINCA DÜŞSÜNLƏR!

Feyzullah Allahverdiyev 1951-ci il yanvar ayının 21-də Astara rayonunun Təngərüd kəndində dünyaya gəlib. Əmək fəaliyyətinə qonşu kənddə hərbi müəllimi olaraq başlayıb. Sonra kərpic kürəsində fəhlə kimi çalışıb. Ondan sonra yenə müəllim olaraq işləyib. Sonra kəndlərində traktor qarajında gecə növbətçisi olaraq çalışıb. Hal-hazırda Təngərüd kənd dini icmasının sədridir. Eyni zamanda əkin-biçinlə, heyvandarlıqla məşğul olur. Kənd camaatının dini vəzifələrini mənimsəməsi, insanların düz yol tutması üçün böyük əmək sərf edir. Söhbət əsnasında kimlərə nə qədər borcu varsa hamısını bir-bir kiçik kitabçasına yazıb cibində gəzdirdiyini də qeyd etdi.

İrfan: *Feyzullah dayı, necə oldu ki, din xidməti ilə məşğul olmağa başladınız?*

Feyzullah dayı: Atam rəhmətə getmişdi. Bizim kənddə xeyir-şər işlərinə baxan yox idi. Başqa kəndlərdə bu işə pul qarşılığında baxırdılar. Ağsaqqallardan da bəziləri deyirdi ki, bizdə pul vermədiklərinə görə heç kimin bu işdə marağı yoxdur. Bu söhbət 1982-ci ildə olmuşdu. Mən o zamanlar qonşu Siyakü kəndində hərbi müəllimi işləyirdim. Məclisdə bu işi təmənnasız öz üzərinə götürəcək bir adam axtarırdılar. Mən dedim ki, bu işi mən öz öhdəmə götürərəm. Atam rəhmətə getdiyi üçün artıq qərarı özüm verirdim. Atam sağ olsaydı ondan icazəsiz özbaşıma qərar verə bilməzdim. Hər zaman onun hörmətini saxlayır, o olan yerdə ağzımızı açıb danışmazdıq. İndiki cavanlar bəzən ataları ilə zarafat edirlər. Bu isə

mənə çox qəribə gəlir. Nə isə, kənddə xeyir-şər işlərini təşkil etməyi öz öhdəmə götürmək istədiyimi bildirəndə bəzi adamlar, "ay bala, bunun düşər-düşməzi var" dedilər. Sonra ağsaqqallardan biri dedi ki, "Bala, bu işə elə sən baxsan yaxşı olar." O gündən sonra o işlə məşğul olmağa başladım. Həm namazlarımı qılırdım, həm də camaatın xeyir-şər işlərini təşkil edirdim.

İrfan: *Bildiyimizə görə dini təhsiliniz yoxdur. Bəs necə olur ki, kənddə din xadimi deyən kimi siz ağla gəlirsiniz?*

Feyzullah dayı: Rəhmətlik Hacıağa müəllim vardı. İngilis dili müəllimi idi, ancaq fars və ərəb dillərini də çox mükəmməl bilirdi. Qohumum idi. "Aməntu"nu onun anası öyrədib mənə. Mən də ona: "nənə, oğlun mənə hərfləri öyrətmir", -dedim. O da oğluna dedi ki: "Ay bala buna da öyrət o hərfləri." Quran hərflərini ilk dəfə mənə o öyrədib. O dövrdə bunu etmək cəsarət tələb edirdi və özü də bundan qorxurdu. Hətta mənə: "sən gedib bunu kiməsə göstərsən, bunları kiməsə öyrətsən, səni tutarlar." -deyirdi. O dövrdə kəndimizdə çox az sayda qoca kişi namaz qılardı. Cavanlardan isə heç kim namaz qılmazdı. Məndə də namaz qılmağa həvəs yarandı. Bir Fatihə, bir də İxlas surəsini bilirdim. Və elə bunlarla da başladım namaz qılmağa. Kəndimizdə məscid tikiləndən sonra yavaş-yavaş gənclərin də dinə marağı artdı.

Məscid inşa edildikdən sonra əlimizdə heç bir dini ədəbiyyat yox idi. O vaxt biz üç-dörd nəfərlə namaz qılardıq. Əvvəllər cümə namazlarında Peyğəmbərimizin Quba məscidində oxuduğu ilk xütbəsini oxuyurduq. Bu, bir-iki il davam etdi. Çünki başqa heç bir vəsait yox idi. Sonradan Peyğəmbərimizin Vida xütbəsi əlimizə düşdü. Bir neçə il də hər cümədə onu oxumağa başladıq. Sonradan Əli Fəhminin tərcümə etdiyi bir neçə surənin mətni keçdi əlimizə. Bir müddət cümələrdə onu da ayə-ayə oxuduq. Allah Ziya Bünyadova rəhmət eləsin, həmçinin Akademik Hacı Vasim Məmmədəliyevdən də razı olsun, sonradan onların Azərbaycan dilində tərcümə etdikləri Quranı əldə etdik. Və həmin gündən artıq cümə günləri xütbədə ta başdan başlayaraq hər cümə bir neçə ayə oxumağa başladıq. İndi isə şükür Allaha, dini ədəbiyyat çoxaldı və bu gün xeyli ədəbiyyatdan istifadə edərək xütbələr, moizələr oxuyuruq.

İndi artıq 20 ilə yaxındır ki, aparılan təbliğatın nəticəsində kəndimizdə yas mərasimləri islami qaydaya uyğun olaraq üç gün keçirilir. Artıq 17 ildir ki, kəndimizdə heç bir dükanda spirtli içkilər satılmır. Toy məclislərində də 90 faiz insan spirtli içki vermir.

İrfan: *Feyzullah dayı, deyirsiniz ki, mən sadə kənd adamıyam. Ancaq bildiyimizə görə sizin akademiklərlə, konkret olaraq mərhum Ziya Bünyadov və Allah xeyirli uzun ömür versin,, Vasim Məmmədəliyevlə dostluğunuz var. Bu dostluğun tarixi haqda məlumat verərsinizmi?*

Feyzullah dayı: Allah onlardan razı olsun. Onlar Quranı Azərbaycan dilinə tərcümə etmişdilər. Tərcümə etdikləri Quranı görüb mən onlara təşəkkür etməyi özümə borc bildim. Kənddə olanlardan müəyyən pay aparmaq qərarına gəldim. O zamana qədər Hacı Vasimi bir neçə dəfə televizorda görmüşdüm. Şəxsi tanışlığım yox idi. Bizim kənddə Cabir müəllim var. İşi ilə əlaqədar olaraq hər ay Bakıya gedib-gəlirdi. Ona dedim ki, Bakıya gedəndə məni də aparsın. Bir də xahiş etdim ki, orada mənim üçün Ziya müəllimi və Vasim müəllimi taparsınız. O da sağ olsun, sözümü yerə salmadı. Günlərin birində Bakıya gəldik. Akademiyanın binasına gəlib Ziya müəllimlə görüşmək istədiyimizi bildirdik. Ziya müəllim bizi qəbul etdi. Aman Allah, insan nə qədər

sadə olarmış. Bizi ayaq üstə qarşıladı. Gəlişimizin səbəbini soruşanda dedim ki, "Ziya müəllim siz Quran tərcümə etmisiniz, ona görə gəlmişik." Dedi: "hə, lap yaxşı, biz kitabın ön sözündə də qeyd etmişik ki, kim hansı nöqsanı tapsa, bizə bildirsin ki, gələcək nəşrlərdə onları aradan qaldıraq. Dedim ki, "nə nöqsan, Ziya müəllim, biz kimik ki, sizdə nöqsan tapaq. Sizin bu böyük əməyinizə görə təşəkkür etmək üçün gəlmişik və gələndə kənddən bir az da pay gətirmişik. İcazə verirsiniz payı bura gətirək? Dedi ki, "hə gətirin". Mənimlə gələn Cabir müəllim tez düşüb maşından payı gətirib gəldi. Hələ bilmirdi biz hansı rayondan gəlmişik. Keçib yerində əyləşdi, haradan gəldiyimizi soruşdu. Astaradan gəldiyimizi deyəndə təəccüblə "Astaradan?" -dedi və oturduğu yerdən qalxıb yenidən bizə tərəf gəldi və "siz mənim yerlilərimsiniz"-deyib bizi qucaqladı. Sonra bir az söhbətləşdik. Çox sadə insan idi.

Onunla sağollaşıb Universitetə yollandıq. Vasim müəllimi tapıp onunla da görüşdük. Kənddən gətirdiyimiz sovqatı verdik. Bizi çox gözəl qarşıladı. Xeyli söhbət etdik.

O gündən Ziya və Vasim müəllimlə dostluğumuz başladı. Həmin gündən sonra hər il onların evinə gedib-gəlirəm. Ailəvi dost olmuşduq. Hətta Vasim müəllim bir neçə dəfə bizim evə qonaq gəlib. Bu, onların necə alicənab, təvazökar insan olduqlarını göstərir. Ziya müəllimin həyat yoldaşı Tahirə xanım deyir ki, "Feyzullah qardaş, Ziya müəllimin ölümündən sonra bir ay bir-iki nəfər gəldi, ondan sonra səndən başqa heç kim bizə baş çəkmir." Mən hər namazdan sonra Ziya müəllimə dua edir, hər il qəbrini ziyarətə gedir və evinə baş çəkirəm.

İrfan: *Feyzullah dayı, İrfan oxucularına, bugünkü gənclərə nə demək istəyərdiniz?*

Feyzullah dayı: Mən kiməm ki, siz məndən müsahibə alırsınız. Mən sadə xalq adamıyam. Sadə bir kəndliyəm. İndi siz deyəndə ki, müsahibə almaq istəyirik, öz-özümə fikirləşdim: "Mən kiməm ki, məndən müsahibə almaq istəyirlər." Ancaq doğrudur, Allah deyir ki, sən məni bir yerdə an, mən səni hər yerdə anaram. Allahıma sonsuz şükürlər olsun ki, deməli, mənim Allah üçün etdiyim hansısa zərrə qədər bir əməl mənim kimi sadə bir insanı sizin gözünüzdə ucaldıb.

Gənclərə də tövsiyəm o olar ki, həyatlarını yalnız Allah üçün yaşasınlar. Müvəqqəti sevdalara qapılıb Allahı unutmasınlar. Gənclər hansı sahədə olmalarından asılı olmayaraq, imanlı olsunlar. Gənc yaşda məscidlərdən uzaq qalmasınlar. Gənclərimizə tövsiyə edirəm ki, ruzinin dalınca deyil, Rəzzaqın dalınca düşsünlər. Yəni maddiyyat içində boğulub, mənəviyyatlarını unutmasınlar.

Mən hər zaman dua edəndə deyirəm ki, Ya Rəbbi, Adəm peyğəmbərdən Məhəmməd peyğəmbərə qədər hər peyğəmbərin ümməti üçün etdiyi duaları, mən də millətimiz üçün edirəm. Amin...

Gənclərə də tövsiyəm o olar ki, həyatlarını yalnız Allah üçün yaşasınlar. Müvəqqəti sevdalara qapılıb Allahı unutmasınlar. Gənclər hansı sahədə olmalarından asılı olmayaraq, imanlı olsunlar. Gənc yaşda məscidlərdən uzaq qalmasınlar. Gənclərimizə tövsiyə edirəm ki, ruzinin dalınca deyil, Rəzzaqın dalınca düşsünlər. Yəni maddiyyat içində boğulub, mənəviyyatlarını unutmasınlar.

Yəhya HƏŞİMOV

BU TƏTİLDƏ DƏ ZİYARƏTİNƏ GƏLƏCƏKDİM

Babacan! İlk Qurani-Kərim və namaz müəllimim oldun. Həmişə qeybətdən qorunmağı təlqin edirdin. Kimsəsizin, dilənçinin mehmandarı idin.

"Bostana girdiyin zaman kimisə tərəvəzdən oğurluq edən görsən, üzünü çevir və uzaqlaş. Özünü görməməzliyə vur, bəlkə ehtiyacı var", -deyib hüsnü-zənni qorumağı öyrədərdin.

Tez-tez qəbiristanlığa gedər, oranın sakinlərini ziyarət edər və onlar üçün dua edərdin. "Orada bir sakitlik tapıram", -deyərdin.

Ömrünün yarıdan çoxunu xəstəlikdən əziyyət çəkdin, ən ağır anlarında belə bir dəfə də olsun Allaha asi olmadın. "Ölüm haqdır, ölüm haqdır", -dedin.

Küçə ilə gedərkən uşaqlara belə salam verər və cibində varsa konfet paylayardın.

Özündən sonra miras olaraq bir sandıq Quran-Kitab qoydun. Sovet dövründə getdiyin kəndlərdə qədim dini kitabları axtarıb tapar, yaxud pulla alıb oxuyardın.

Bəzəkli geyinməkdən qaçar və dərvişanə həyat yaşayardın. "Bir az özünə bax", -deyənlərə: "dünya mənim nəyimə lazım?" –deyib əhəmiyyət verməzdin.

Allah dostlarına, ağsaqqallara hörmək edər, onlara qulluq etməkdən həzz alardın. Səhərləri Quran oxumaqla keçirməyi xoşlayardın.

Sadə idin və sadəliyi sevirdin. Hz. Peyğəmbərin (s.ə.s) adı çəkildikdə ədəblə yerindən tərpənər və salavat gətirərdin. Birinin əlində Quran gördükdə tez ayağa qalxardın.

Köhnə kişilərdən idin. Yaşının əllidən çox olmasına baxmayaraq ağbirçək, namaz-niyazlı ananın yanında müti bir övlad kimi dayanar, sözünə qulaq verərdin.

Yaşadığın otağa girdikdə istifadə etdiyin eynək, təsbeh və kitablar sanki sən buradasan deyir. Ancaq sən artıq aramızda yoxsan, bu dünyanın sakini deyil, möminlər yurdunun sakinisən, inşallah...

Daha çox sevdikdiklərinlə bərabərsən... Torpağın altında yatanlar üstündəkilərdən daha üstündür ...

Köhnə kişilər müsəlman kimi, mömin kimi yaşamağı bacardılar. Bəs övladlar necə?

Bax, babalar, atalar belə idi... Bəs övladlar, nəvələr necə olmağa can atır?..

Salih Zeki MERİÇ
salihzekimeric@yahoo.com

ZİKR DAİMİ MƏHƏBBƏT TƏRƏNNÜMÜDÜR



Allah sevgisi möminin iman zirvəsini meydana gətirən bir duyğudur. İmanın gücü bu məhəbbətlə artar və dərinlik qazanar. Sevgi dildən qəlbə, qəlbdən də əməllərə əks etsə, ülvilik qazanar. İmanda əsas olan qəlbin təsdiqi sayıldığı kimi, məhəbbətin həqiqisi qəlbdən duyulandır.

Qəlbin mərkəzində duyulan hisslər ruhun ucalmasına və mənəvi tərəqqiyə vəsilə olar. Bu da möminin hisslərini dəyişdirəcəyi daxili bir mexanizmanın hərəkətə keçməsi ilə mümkündür. Bu daxili mexanizm də dildə başlayan, oradan qəlbə enən və qəlbdən də bütün bədənə yayılan zikr halıdır. Zikr mütəmadi olaraq sevgi tərənnümüdür. Zikr bəndənin qulluğunun fərqində olması və Rəbbinə heyranlığını könül aynasına əks etdirməsidir. Zikr hər daim Allahla birgə olma halıdır.

Sevən sevdiyini bir an da olsa unutmaz. Onun adını xatırlamaqdan dərin bir həzz alar. Onu xatırlamaqdan bir anlıq qəfləti, sevgilisinə edilmiş haqsızlıq sayar.

Bir insan bəşəri sevgilərin, məhdud duyğu qələbəliyində nəfsani də olsa bir həzz alırsa, ilahi zikri hüceyrələrində hiss edən bir bəndənin hansı mənəvi zövq içində olduğunu dərk etmək çətindir.

Məhəbbəti bəsləyən xüsus son nəfəsə qədər zikr halında olmaqdır. Məhəbbət quldan Rəbbinə doğru axan bir çay kimi olarsa, o sevginin qarşılığı Rəbbindən quluna doğru axan dəryalar kimi olar. Üstəlik Rəbbin hər neməti sonsuz olduğu kimi sevgi neməti də sonsuzdur.

Rəbbimiz Bəqərə surəsində xatırlamanın iki tərəfli olduğunu ifadə edərək:

"Siz (itaətlə) Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükür edin, Məni danmayın!" (əl-Bəqərə, 152) buyurur.

Qulun Rəbbini zikr etməsi nemətlərinə şükür, imtahanlarına səbir, əmrlərinə təslimiyyət və Rəbbin göstərdiyi istiqamətdən ayrılmamağı bir həyat düsturu halına gətirməkdir. Zikrin başqa bir məqsədi də

Zikrdən, təfəkkürdən, ibadətdən məhrum olmaq məhrumiyyətlərin ən acısıdır. Dünya və içindəkiləri yeganə məqsəd halına gətirmək ilahi hisslərin önünə bir pərdə çəkməkdir. İnsan beləliklə Allah və Peyğəmbər ilə arasına maneələr qoyar. Nə gələn mesajı qəbul edər, nə də içində olduğu vəziyyətdən narahat olar.

niyyətlərin xalisləşməsi, mənəvi təkamülün davamlı inkişaf etməsidir.

Allahın qulunu unutmaması, ondan razı olması, onu himayəsi altına alması, hidayət nemətini verməsi, bəsirətini açması, qulluq şüurunu bəxş edərək ilahi istiqamət üzrə dünya və əbədi həyatında ona vəd etdiklərini verməsidir.

Maidə surəsində Allah məhəbbətin iki tərəfli olduğunu ifadə edir;

"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar…" (əl-Maidə, 54)

Bir də Allahın zikrindən üz çevirmək var ki, qul üçün ən böyük fəlakətdir. Allahın zikrindən üz çevirmək Onun mərhəmət dəryasının içində olaraq Allahdan qafil olmaqdır. Buna görə hidayət Allahın qullarına verdiyi ən böyük nemət sayılır. Hidayət mömin üçün qurtarılmış bir limandır. Möminin hər duasının başında hidayət üzrə olmaq duası olmalıdır. Eynilə hər gün qırx dəfə Fatihə surəsində oxuduğumuz "bizi doğru yola yönəlt" duası kimi.

Zikrdən, təfəkkürdən, ibadətdən məhrum olmaq məhrumiyyətlərin ən acısıdır. Dünya və içindəkiləri yeganə məqsəd halına gətirmək, ilahi hisslərin önünə bir pərdə çəkməkdir. İnsan beləliklə Allah və Peyğəmbər ilə arasına maneələr qoyar. Nə gələn mesajı qəbul edər, nə də içində olduğu vəziyyətdən narahat olar.

Rəbbimiz Özünü unutmağın cəzasının dünyada çətinliklər içində olmaq, axirətdə də kor vəziyyətdə həşr olunmaq olduğunu xəbər verir:

Taha surəsindəki bu ayələr insanı dəhşətə salır:

"Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik! O belə deyər: "Ey Rəbbim! Nə üçün məni məhşərə kor olaraq gətirdin, halbuki mən (dünyada hər şeyi) görürdüm!" (Allah) buyurar: "Elədir, amma sənə ayələrimiz (möcüzələrimiz, qüdrətimizə dəlalət edən əlamətlər) gəldi, sən isə (özünü görməməzliyə vurub) onları unutdun (iman gətirmədin). Bu gün eləcə də sən unudulacaqsan!" (Ta ha, 124-126)

Özünü unudanın aqibətinin necə olacağını xəbər verən Rəbbimiz insanda bir qəlbin olduğunu (əl-Əhzab,4) və həm fiziki olaraq bir tarazlıq meydana gətirdiyini, həm də mənəvi olaraq bir ürəkdə ancaq bir sevginin olmasının zəruriliyini bildirmişdir. Allah öz sevgisi ilə yanaşı başqa sevgi istəmir.

Xülasə, Allahın zikrindən üz çevirmək dünyada ağır bir həyat sürməyə səbəb olar. İşin axirət tərəfi daha da ağır olar.

Mömin davamlı təfəkkür, təzəkkür və təşəkkür halında olmalıdır. Qəflət, dünyaya meyil, ehtirasların ardından qaçmaq rəhmət qapısından uzaqlaşmağa, dünyəviləşməyə və əbədi həyatın məhv olmasına səbəb olar.

Hər səhər kainatın oyanışı kimi qəlblərimiz yenidən dirilməli, yenidən zikrə dalmalı və hər bir təcəlli qarşısında ürpərərək rəhmət qapısına baş qoymalıdır.

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

MÖMİN VƏ DÜNYA -1

DÜNYAYA GƏLİŞ SİRRİ: ÇALIŞMAQ

Allah-Təala Özünün layiqincə tanıması, həmçinin layiqincə ibadət, yəni qulluq etməsi üçün insanı yaratdı.

İnsanı bu imtahan üçün çiləli və zəhmətli, məşəqqətlərə səbir, çalışmalarda dözüm tələb edən dünyaya göndərdi.

İmtahanda müvəffəq olduğu təqdirdə ona axirət yurdunda əziyyət və zəhmətdən uzaq, mükafat və əmin-amanlıq yurdunu, yəni cənnəti vəd etdi.

Müvəffəq olmayanları isə zəhmət və məşəqqətdən də ağır, əzab və qəhr yurdu olan cəhənnəmə düçar edəcəyini bildirdi.

Bu həqiqətə inanan insan üçün dünya və içindəkilər bir dərsxana ləvazimatından ibarətdir. Dünya həyatı son nəfəsə qədər, tərin son damlasına, taqətin son nöqtəsinə qədər çalışılacaq, səy göstəriləcək bir imtahan məkanıdır.

Axirətdə sevinc və əmin-amanlıq meyvəsi toplamaq üçün dünya tarlasında tər tökmək, əziyyətlərə sinə gərmək zəruridir. Üstəlik Allahın haqqına riayət edərkən qulların haqqına da riayət, heç kimi incitməmək, məxluqata qarşı mərhəmətlə, şəfqətlə rəftar etmək də şərtdir...

Axirət həqiqətinə iman etməyən bədbəxtlər üçünsə, vasitə olan dünya məqsədə çevrilir. Ölüm məqsədsiz bir son, ömür də hər saniyəsi səfa sürüləcək hazır bir miras kimi görsənir... Hər fürsət və imkan halal-haram, təmiz-kirli, haqlı-haqsız olduğuna baxmadan faydalanılacaq, yağmalanacaq, istehlak ediləcək bir mal sayılır. Bu baxışla dünya min bir haqsızlıq, acımasızlıq, zülm, qan və göz yaşının toplandığı yer olur.

Haqq və hüquq, vicdan və mərhəmət, insaf və insaniyyət kimi dəyərlər də yalnız axirətə haqqıyla iman edən və hesab qorxusuyla titrəyənlərin qəlblərində həqiqi mənasını tapar.

HƏR NEMƏTİN HESABI VAR

Allah-Təala digər bütün məxluqatı məhdud sahədə, özlərinə məxsus sövqi-ilahi ilə verilən vəzifəni yerinə yetirməyə məmur etdi.

Mələkləri də nəfsdən, iradədən, etirazdan xali, ilahi əmrləri dərhal icra edən varlıqlar olaraq yaratdı.

İnsanı isə tamamən fərqli, müstəsna xüsusiyyətlərlə yaratdı. Ona ağıl, zəka, arzu, ehtiras, qəzəb, mənlik kimi bir çox müsbət və mənfi xüsusiyyət verdikdən sonra onu əmrinə müntəzir varlıqlarla dolu olan dünyaya göndərdi.

Dünyada insanın necə həyat sürməsini arzu etdiyini kitab və peyğəmbərləriylə ona bildirərək, mənəvi olaraq da böyük ehsanlar bəxş etdi. Bütün bu təchizatla yanaşı insana bir də iradə verdi və beləliklə imtahan başladı:

Arzu və istək verdi; onu layiq olduğu yerə - cənnətə, yoxsa süfli dünya nemətlərinə yönəldəcəyinə baxdı...

Ağıl neməti verdi; onu ibrət və təfəkkürə vasitə, seçimlərdə daim axirətin ağır-

lıq təşkil etdiyi həssas bir tərəzi, yoxsa dünyəvi mənfəətin sadə bir maşası edəcəyinə baxdı...

Qəzəb və həyəcan verdi; onu Haqq adına, ədalət adına, İslamın izzət və şərəfini mühafizə, vətən, millət və məzlumların müdafiəsi yolunda bir güc olaraq, yoxsa daxili didişmələrin, boğuşmaların fitnə qazanı, eqoizmin, təkəbbürün fitili olaraq istifadə edəcəyinə baxdı...

Enerji verdi, dinclik verdi, gənclik verdi, zaman verdi, imkan verdi... Cəhd göstərib bunlardan istifadə edəcək, yoxsa tənbəllik edib arxayınçılığa, gərəksiz əməllərə qapılıb boş yerə sərf edəcək? Harada və necə istifadə edəcəyinə baxdı...

Mal verdi, mülk verdi, nemət verdi... Necə istifadə etdiyinə baxdı... Başqaları ilə paylaşdı, yoxsa nəfsinə həsr etdi? Dinin hökmlərinə və sünnəyə görə sərf etdi, yoxsa sovuraraq israf etdi? Ehtiyacı olanları axtarıb tapdımı, himayə etdimi, özünü onlardan məsul bildimi? Yoxsa istəyəni və imkansızı məhrum qoydu? Xəsisliklə -sanki sümüyünü gizlədən bir köpək kimi- varını gizlətməklə, yığmaqla ömür və imkanlarını çürütdümü?.. Yoxsa əlindəki hər imkanı cənnət bağçalarının toxumu mahiyyətində dünya tarlasına saleh əməl olaraq əkdi?

Bütün bu nemətlərə şükür etdi, yoxsa nankorluqla qarşılıq verdi?..

Xülasə;

Allah-Təala bu imtahan dünyasında lütf etdiyi her şeyi sorğu və suala mövzu olacaq, hesabı soruşulacaq bir vasitə olaraq verdi. Ayeyi-kərimədə buyurulur:

"Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!" (ət-Təkasur, 8)

Bu ayədə hesabı soruşulacaq nemətlərin möhtəvasına maddi-mənəvi bütün imkanlar daxildir.

Unudulmamalıdır ki, insanın çalışmaq, qazanmaq, qazandığını xərcləmək kimi bütün maddi və dünyəvi təsərrüfləri də qulluğa daxildir. İnsanın yeganə məsuliyyəti namaz, oruc kimi ibadətləri yerinə yetirmək deyil. İnsan boğazından keçən hər loğmadan, ağzından çıxan hər sözdən, maddi-mənəvi haqq və hüququn gerçəkləşdiyi hər şeydən məsuldur.

Bu məsuliyyətlərin həssaslıqla fərqində olmaq, Allaha və qullarına qarşı olan haqlara yüksək səviyyədə riayət etməyin adı təqvadır, gözəl əxlaqdır, İslam zərifliyidir.

Unudulmamalıdır ki, insanın çalışmaq, qazanmaq, qazandığını xərcləmək kimi bütün maddi və dünyəvi təsərrüfləri də qulluğa daxildir. İnsanın yeganə məsuliyyəti namaz, oruc kimi ibadətləri yerinə yetirmək deyil. İnsan boğazından keçən hər loğmadan, ağzından çıxan hər sözdən, maddi-mənəvi haqq və hüququn gerçəkləşdiyi hər şeydən məsuldur.

Başda peyğəmbərlər olmaq üzrə əshabi-kiram və bütün Haqq dostları dünyada bu əsalət və zərifliklə yaşamış, xüsusilə qazanclarının təmizliyi, loğmalarının halallığı barəsində müstəsna bir həssaslıq göstərmişlər.

Onlar həm Allaha təvəkkül etmiş, həm də Onun halalından verəcəyi ruzi üçün çalışmış, səy göstərmişlər.

Həzrət Davud kimi peyğəmbərlərdən tutmuş neçə-neçə Allah dostu olan bir çox Haqq aşiqinin seçkin xüsusiyyəti:

HALAL RUZİ DƏRDİ…

İnsan bu dünyada özünün və ailəsinin dolanışığını təmin etmək üçün maddi qazanca möhtacdır. Bu xüsusda başqalarına yük olmamaq, heç kimə əl açmaq məcburiyyətində qalmadan işləmək hər bir bəndənin vəzifəsidir.

"Heç kim əsla öz qazancından daha xeyirli bir ruzi yeməmişdir..." (Buxari, Büyu, 15; əl-Ənbiya, 37) buyuran Fəxri-Kainat (s.ə.s) səhabələrini də ruzilərini halal yoldan və öz əməkləriylə təmin etməyə və insanlardan heç nə istəməməyə çağırırdı.

Bir gün mədinəli müsəlmanlardan kasıb bir nəfər Rəsulullahın yanına gəldi və yemək üçün nə isə verməsini istədi.

Allah Rəsulu ondan:

"- Sənin evində heç əşya yoxdurmu?" -deyə soruşdu.

O:

Bir möminin ruzisinə Allahın zamin olduğu inancıyla könlü rahat olması, ruzi tələşına qapılmadan çətin zamanlarda büdrəməməsi, dik durması təvəkkülünün nəticəsidir. Bu inanc şeytanın kasıblıqla qorxudaraq, haramın uçurumlarına sövq etməsi qarşısında qulun sarılacağı təminatdır.

"- Var, bir hissəsilə örtündüyümüz, bir hissəsini yerə sərdiyimiz bir çul və bir də su qabımız var", -dedi.

Rəsuli-Əkrəm (s.ə.s):

"- Onları mənə gətir!" -buyurdu. Həmin adam çulu və su qabını gətirdi. Peyğəmbər (s.ə.s) onları əlinə aldı və ətrafındakılara:

"Bunları kim almaq istəyir?" -deyə səsləndi.

Səhabələrdən biri həmin əşyaları bir dirhəmə almaq istədiyini söylədi. Həzrət Peyğəmbər:

"- Artıran yoxdurmu?" -deyə bir neçə dəfə səsləndi və onları iki dirhəm verən bir səhabəyə satdı. Pulu kasıb səhabəyə uzadaraq:

"Bunun bir dirhəmiylə ailənə yemək al. Qalan pulla da bir balta alıb yanıma gəl!" -buyurdu.

Peyğəmbərimiz onun gətirdiyi baltaya öz əllərilə bir sap taxdı və belə buyurdu:

"Haydı, indi get. Bununla odun kəs və sat! On beş gün işlə, ondan sonra yanıma gəl!"

Həmin adam on beş gün sonra Peyğəmbərimizin yanına gəldi. On dirhəm qazanmış, bu pulla özünə və ailəsinə paltar və yemək almışdı.

Peyğəmbər (s.ə.s) bu hala çox sevindi və belə buyurdu:

"Dilənçiliyin qiyamət günü üzündə bir ləkə kimi görünməsindənsə, belə etməyin sənin üçün daha xeyirlidir..." (Əbu Davud, Zəkat, 26/1641; İbn Macə, Ticarət, 25)

Fəxri-Kainat (s.ə.s) müsəlmanların tənbəl, zəif, miskin, fərasətsiz olmalarını istəmir, odun kəsib satmaq surətiylə də olsa işləyib qazanmağa gücü çatan bir adamın başqasından nə isə istəməsini əsla xoş qarşılamırdı.

Bu şüura sahib olan səhabələr yalnız dolanışıqlarını təmin etmək deyil, sədəqə vermək üçün də alın təri tökmüşlər. İnfaq ayələri nazil olduqda heç bir dünya malına sahib olmayan kasıb səhabələr də bu

ayələrin möhtəvasına girə bilmək üçün odun doğramış, satmış və infaq etmişdilər.

Bir çox peyğəmbər şəxsən öz əlinin əməyi ilə dolanmışdır. Həzrət Adəm əkinçilik, Həzrət İdris dərzilik, Həzrət İsa dülgərlik, Həzrət Davud zireh emalı peşələrinin piri sayılırlar. Rəsulullah (s.ə.s) də ticarət və çobanlıq kimi peşələri yerinə yetirmişdir. İslam tarixində də bir çox elm və mənəviyyat sahibləri öz fəaliyyətləri ilə yanaşı ticarət, yaxud sənətkarlıqla məşğul olaraq dolanışıq xüsusunda heç kimə möhtac olmamışlar. Hədisi-şərifdə də belə buyurulur:

"Allah-Təala qulunu halal ruzi ardınca qaçmaqdan yorulmuş vəziyyətdə görməyi sevər." (Süyuti, əl-Camius-Sağir, I, 65)

Bunun müstəsna bir misalı Şah Nəqşbənd həzrətləridir. Söhbət məclislərində tez-tez;

"İbadət on qismdir; doqquzu halal ruzi tələb etmək, biri isə digər əməllərdir." (Deyləmi, Müsnədul- Firdovs, III, 107/4062) hədisi-şərifini oxuyar və məzmunuyla əməl etməyi əmr və tövsiyə edərdi. (Buxari, Ənisut-talibin, s. 63, 68)

Həzrət Pir yeməyini öz təsərrüfatından əldə edərdi. Toxum, tarla, su və tarla sürən məxluqat xüsusunda hədsiz qayğı və ehtiyat göstərərdi. Bu səbəblə alimlərin çoxu, təbərrükən onun halal yeməyindən yemək üçün söhbətlərində iştirak edərdilər. (Buxari, Ənisut-talibin, s. 64; Əbul-Muhsin Məhəmməd Baqir, Məqamat, s. 37, 112, 138; Rəşahət, s. 159, 184.)

Nəqşbənd həzrətləri əl əməyi ilə çalışıb qazanmağa o qədər əhəmiyyət verərdi ki, tənbəlliyi səbəbindən işsiz-gücsüz dayanan insanları müridliyə qəbul etməzdi. (Əbul-Qasim, ər-Risalətul-Bəhaiyyə, vr. 121 a-b)

Onun irşad tərbiyəsində həyat düsturu dünyəvi işlərdə işləyib qazanmaq və heç kimə yük olmamaq, lakin işləyərkən də Haqq-Təaladan qafil olmamaq idi.

Mömin bəndənin halal ruzi tələşıyla səy göstərməsi xüsusunda doğru anlayacağı bir məfhum da ruzi məsələsində bir olan Allaha güvənmək, yəni;

TƏVƏKKÜL…

Bir möminin ruzisinə Allahın zamin olduğu inancıyla könlü rahat olması, ruzi tələşına qapılmadan çətin zamanlarda büdrəməməsi, dik durması təvəkkülünün nəticəsidir. Bu inanc şeytanın kasıblıqla qorxudaraq, haramın uçurumlarına sövq etməsi qarşısında qulun sarılacağı təminatdır.

Ayeyi-kərimədə buyurulur:

"De: "Allahın bizim üçün (lövhi-məhfuzda) yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!" (ət-Tövbə, 51)

Allah-Təalanın Rəzzaq ismi-şərifinin böyük bir təcəllisi qış mövsümündə zühur edər. Qar yağar, hər tərəf (yerinə görə yarım metr, bir metr qalınlığa çatan) dümağ örtüyə bürünər. Orada yaşayan

"Aləm yaradıldığı gündən bəri, heç bir quş qonşusundan daha çox yuva qurmağa çalışmadı; heç bir tülkü gizlənəcək bircə yuvası olduğu üçün özünü pərişan etmədi; heç bir sincab bir deyil, iki qışa çatacaq qədər qoza yığa bilmədiyi üçün tələşdən ölmədi və heç bir köpək qocalıq çağı üçün yığılmış sümüyü olmadığını dərd edərək yuxusuz qalmadı."

saysız-hesabsız canlı varlıqlar toprağa sığınar. Rəzzaqı Zül-Cəlalın mühafizəsi altında, sanki bir qundaq halına gələn torpaqda yaşayarlar. Mərhəmətlilərin ən mərhəmətlisi olan Allah o məxluqatın ruzisini orada da verər. Bahar gələndə və qar əridikdə cəsəd yığınları yerinə, bahar təravəti ilə təbiətdə hərəkət edən varlqılarla qarşılaşarıq.

Hədisi-şərifdə də belə buyurulur:

"Əgər siz Allaha layiqincə təvəkkül etsəydiniz, (Allah) quşları doyurduğu kimi sizə də ruzi verərdi. Quşlar səhər qursaqları boş olaraq çıxdıqları halda axşam doymuş vəziyyətdə qayıdarlar." (Tirmizi, Zöhd, 33; İbn Macə, Zöhd, 14)

Ancaq təvəkkül duyğusu insanı tənbəlliyə sövq etməməlidir. Çünki tənbəllər bu hallarıyla Allaha deyil, əl uzadacaq xeyriyyəçilərə güvənmiş miskin insanlardır. Necə ki, Həzrət Ömər (r.a) xilafəti zamanında işi tənbəlliyə və dilənçiliyə çatdıraraq, işsiz-gücsüz gəzən, sonra da "Biz təvəkkül əhliyik." deyən kəsləri:

"Siz Allaha təvəkkül edən mütəvəkkillər deyil, başqalarının malına güvənən mütəəkkillər, yəni yeyicilərsiniz. Həqiqi mütəvəkkil torpağa toxumu atdıqdan sonra Allaha güvənən insandır." -deyə danlamışdır. (İbn Rəcəb əl-Hənbəli, Camiul-ulum vəl-Hikəm, Amman 1990, s. 650)

Şah Nəqşbənd də bu barədə:

"Təvəkkül sahibi insan nəfsini görməməli və çalışaraq təvəkkülünü gizləməlidir." -buyurardı. (Əbul-Muhsin Məhəmməd Baqir, Məqamat, s. 70)

Elə isə təvəkkül ilə birlikdə, yəni Allahdan başqasına güvənməmək xüsusiyyəti ilə birlikdə başqa xüsus da vacibdir:

Allahdan başqa heç kimə əl açmamaq:

İSTİĞNA…

İstiğna insanın əlindəkilərə razı olması, özünü möhtac hiss etməməsidir.

Allaha qarşı istiğna içində olmaq Haqq-Təalanın verdiyi mal, övlad kimi nemətlərlə həddi aşan kafirlərin pis xasiyyətlərindəndir. Onlar mallarıyla əbədi olacaqlarını, sonsuza qədər qalacaqlarını sanarlar. Halbuki dünya fanidir. Ayeyi-kərimədə buyurulur:

"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilən dir!)" (əl-Fatir, 15)

Allaha möhtac olduğunu bilən və yalnız Ondan kömək istəyən, yalnız Ona təvəkkül edən mömin başqa qullara əsla əl açmaz. Bu mənada istiğna tərifəlayiq

bir mömin xüsusiyyətidir. Başqalarından istəmək, üzünün suyunu tökməyə alışmaq insanın iffət və həya duyğularını da zədələyər. Ruzinin Allahdan olduğuna inanan kəs bəndələrə bel bağlamamalıdır.

Peyğəmbər (s.ə.s) səhabələrinin bəzilərindən beyət alarkən başqalarından heç nə istəməmək şərti qoymuşdur. Dilənçiliyi qadağan etmişdir. İnsanlardan nə isə gözləməyi xoş qarşılamamışdır. Aşağıdakı hadisə bu barədə gözəl bir misaldır:

Əbu Səid (r.a) aclıqdan tez-tez qarınına daş bağlamaq məcburiyyətində qalan kasıb səhabələrdən idi. Anası ona:

"- Qalx, Rəsuli-Əkrəmin yanına get, Ondan nə isə verməsini istə. Filankəs yanına getmiş, O da imdadına çatmış. Filankəs də getmişdi, o da nemətə nail oldu. Haydı, sən də get, bəlkə bir xeyir əldə edərsən." -dedi.

Əbu Səid (r.a) isə anasına cavab olaraq;

"- Bir az gözlə görək, ay ana, axtaraq, heç nə tapa bilməsək onda gedərik." -dedi. Lakin bütün axtarışları və səyləri boşa çıxdı. Belə olduqda çarəsiz halda Fəxri-Kainat (s.ə.s)-in yanına getmək qərarına gəldi. Allah Rəsulunun hüzuruna çıxdıqda onun xütbə oxuduğunu gördü və dinləməyə başladı. Allah Rəsulu xütbəsində belə deyirdi:

"İstiğna göstərən və iffətini mühafizə edən insanları Allah-Təala bütün aləmdən müstəğni (namöhtac) edər..."

Onsuz da utana-utana gələn Əbu Səid (r.a) bu sözü eşitdikdən sonra Rəsulullah (s.ə.s)-dən nə isə istəməyə heç cəsarət edə bilmədi və evə əliboş qayıtdı. Özü bundan sonrakı halını belə izah edir:

"Rəsuli-Əkrəmdən heç nə istəyə bilmədən evimə qayıtdığım halda Allah-Təala bizə ruzimizi göndərdi, işimiz o qədər yaxşı getdi ki, ənsar arasında bizdən daha zəngin heç kim yox idi." (Bax. Əhməd, III, 44)

Bunu da ifadə edək ki, istiğna cəmiyyətdə hər kəsin öz başının çarəsinə baxması, heç kimin başqalarına kömək olmaması demək də deyil. O, yalnız "başqalarına yük olmamaq" təlqinidir.

Əlbəttə ki, cəmiyyətdə kasıblar, möhtaclar, əlillər, xəstələr, acizlər, işləməyə gücü çatsa da baxmaqla mükəlləf olduğu yaşlı anası, atası, xəstə uşağı olanlar, işləsə də xəstəsinə, uşağına baxmağa imkanı olmayan, işsiz qalan, iş axtarsa da tapa bilməyən, müflisləşən, həbsə düşən... pərişan insanlar var.

Bütün bu qərib və kimsəsizləri -hallarını gizlətsələr, iffətləri səbəbiylə dilə gətirməsələr də- axtarıb tapmaq və ehtiyaclarını təmin edib sevindirmək imkan sahiblərinin həm ilahi, həm vicdanı məsuliyyətləridir.

Möminlər haqqında:

"Mallarında da istəyənin və (abrına qısılıb istəməyən) yoxsulun haqqı (payı) var." (əz-Zariyat, 19) buyuran Haqq-Təala Muminun surəsində cənnətə qovuşaraq qurtuluşa nail olan möminlərin xüsusiyyətlərini zikr edərkən, yalnız "zəkat verənlər" deyil:

"Zəkat üçün (xüsusi) fəaliyyət göstərənlər..." (əl-Miminun, 4) buyurmuşdur.

Allah-Təala lütf və kərəm sahibidir, əkrəmul-əkrəmin / comərdlər cömərdidir. Məhrumlara, möhtaclara, qəlbiqırıqlara sonsuz mərhəmət sahibidir. Qullarına lütfü və ehsanı çox genişdir. Haqq-Təala yer üzündə xəlifə olaraq yaratdığı, Zatının şahidi olmalarını arzu etdiyi möminlərin də öz cəmal xüsusiyyətləriylə təchiz olmuş; bütün məxluqatı qucaqlayan bir mərhəmətə sahib, comərd, vicdanlı, həssas və incə qəlbli qullar olmalarını arzu edir. Buna görə yalnız istəyənə verməyimizi əmr etməklə kifayətlənmir, istəyə bilməyəni də axtarıb tapmağı, hətta o iffət qəhrəmanlarını simalarından tanıyacaq bir ürək həssaslığı qazanmağımızı fərman buyurur. Necə ki, ayeyi-kərimədə buyurulur:

"(Sədəqə) Allah yolunda canından keçərək (dolanmaq, ruzi kəsb etmək

üçün) yer üzündə hərəkət edə bilməyən (və ya buna imkanı olmayan) yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər. (Ya Rəsulum!) Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan (bunlara) nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!" (əl-Bəqərə, 273)

Ayeyi-kərimənin bizə xatırlatdığı bir xüsus da budur:

Elm təhsilinə və xüsusi xidmətlərə özünü həsr etdiyi üçün, müəyyən bir müddət işləyə bilməyən kəslər cəmiyyət adına bir fərzi-kifayəni yerinə yetirirlər. Rəsulullahın həm təhsilləriylə, həm dolanışıq və qalacaq yerləri ilə maraqlandığı Əshabi-Suffə kimi hər dövrdə imkan sahiblərinin maddi olaraq sahib çıxacağı elm, irfan və peşə tələbəsi də ehtiyaclarını qarşılaya bilmələri üçün işləmək məcburiyyətiylə qarşı-qarşıya qoyulmamalıdır.

Əsri səadətdə yaşanan hadisə Allah Rəsulunun bu məsələyə necə yaxınlaşdığını nə gözəl ifadə edir:

Ənəs bin Malik (r.a) belə nəql edir:

"Nəbiyyi-Əkrəm (s.ə.s) zamanında iki qardaş vardı. Bunlardan biri (elm öyrənmək üçün) Peyğəmbərimizin yanına gedər, digəri də işləyərdi. Bir gün işləyən qardaş digərindən Rəsulullaha şikayət etdi. Allah Rəsulu (s.ə.s) bu şikayətə belə cavab verdi:

"Bəlkə də sən onun sayəsində iş tapır və ruzi qazanırsan." (Tirmizi, Zöhd, 33/2345)

Allah-Təala dünyada ruzi bölgüsündə zəngini kasıbdan məsul tutur. Zəngindən möhtacları simalarından tanımasını, axtarıb tapmasını, himayə etməsini istəyir. Kasıbdan da səbir, iffət və istiğna göstərməyi arzu edir. Beləcə, zəngin təkəbbür və minnətə qapılmaq bir yana, yardımını qəbul edəcək kasıb axtararkən, kasıba da zillət və istismara düşmədən sahib çıxılmış olur. Meydana könüllərin birləşdiyi, məhəbbətin hakim olduğu bir cəmiyyət çıxır.

Necə ki, hicrətdən sonra Rəsulullah (s.ə.s) mühacirlərə sahib çıxmaları üçün hər bir mühaciri, bir mədinəli müsəlman ilə qardaş elan etdi. Qardaşlar bir-birlərinin hər işindən məsul oldular. Hətta gələcəkdə Allah tərəfindən ləğv olunana qədər bir-birlərinə varis də oldular. Ənsar böyük bir qardaşlıq nümunəsi göstərərək; evlərini, eşiklərini, bağçalarını mühacir qardaşlarına təqdim etdi. Mühacirlər isə; göz toxluğu ilə bunları qarşılıqsız deyil, bağçalarda həqiqətən işləmək şərtiylə qəbul edəcəklərini bildirdilər.

Peyğəmbər (s.ə.s) mühacirlərdən Əbdürrəhman bin Əvf (r.a)-ı ənsardan Sad bin Rəbi ilə qardaş etdi. Bunun üzərinə Sad ona:

"- Qardaşım, mən Mədinənin ən zəngin adamıyam. Sərvətimin yarısı sənin olsun..." -dedi.

Əbdürrəhman (r.a):

"- Malın sənə mübarək olsun!" deyərək gözütoxluq göstərdi. Oradakılardan bazarın yerini göstərmələrini xahiş etdi. Dərhal ticarətlə məşğul olaraq halal ruzi qazanmağın yolunu tutdu.

Bu təvəkkül və istiğnasının bərəkətiylə Əbdürrəhman bin Əvf (r.a) deyir ki:

"Heç unutmaram, yerdən hansısa bir daşı qaldırsam, altında qızıl və ya gümüş tapacağımı ümid edərdim." (Bax. Buxari, Büyü, 1; İbn Kəsr, əl-Bidayə, III, 228)

Ruzi qazanmaq xüsusunda diqqət ediləcək başqa nüanslar da var. Xüsusilə;

DÜNYAYA ALDANMAMAQ…

İnsanın əlindəki ömür sərmayəsini tamamilə dünya işlərinə həsr etməməsi, digər qulluq vəzifələrinə də laqeyd yanaşmamağa diqqət yetirməsi zəruridir.

Daha çox dünya malı qazanmaq uğrunda ehtiras insanı yeyib bitirən, sonsuz, dinclik və səadətdən məhrum bir çilədir.

Nəfsin sağalmaz bir xəstəliyidir. Bu söz digər məxluqatın belə bu xəstəliyə düşmədiyini göstərmək baxımından çox mənalıdır:

"Aləm yaradıldığı gündən bəri, heç bir quş qonşusundan daha çox yuva qurmağa çalışmadı; heç bir tülkü gizlənəcək bircə yuvası olduğu üçün özünü pərişan etmədi; heç bir sincab bir deyil, iki qışa çatacaq qədər qoza yığa bilmədiyi üçün tələşdən ölmədi və heç bir köpək qocalıq çağı üçün yığılmış sümüyü olmadığını dərd edərək yuxusuz qalmadı."

Heç kim üçün müstəsna olmayan əcəl təbiiylə sona çatacaq, yaşlılıq və xəstəliklərlə son dövrü də məşəqqət içində tamamlanacaq dünya həyatını bir az da firavan hala gətirə bilmək üçün o qədər tələşla, ehtirasla, min bir əziyyətlə işləyib, əbədi həyatı unutmaq, onu abad etmək yerinə atəşlər içində pərişan qoymaq necə acı bir axmaqlıqdır!

Xalq arasında deyilən: "İşləmək də ibadətdir..." sözünü halal ruzi əldə etmək üçün çalışan kəslərin dini mükəlləfiyyətləri yerinə yetirməkdə sərbəst olacaqları kimi başa düşmək müsəlmanlıqla heç cür uyğun gəlməz. Məscid quşu ikən dünyalıq ardınca düşərək əvvəl namazlardan, sonra zəkatdan, nəticədə Allah Rəsulunun könlündən qoparaq İslamdan uzaqlaşan Sələbənin qəmli aqibəti hər mömin üçün dərs olmalıdır.

Bu xüsusda iş sahibləri işçilərinin ibadət saatlarından məsuldurlar. İşçilər nöqteyi-nəzərindən namaza, oruca fürsət verilməyən, Allaha açıq şəkildə üsyan edilən yerlərdə işləmək və bunu bir məcburiyyət olaraq dilə gətirmək də Allah qatında keçərli bir bəhanə deyil. Əsl təvəkkül inancı məhz burada göstərilməli, Allahın haqqına sayğısızlıq göstərmədən halal ruzi qazanma yolları axtarılmalıdır. Xalis niyyətlə, halal ruzi dərdində təqvanı axtararaq, səbir edərək Haqq-Təalaya təvəkkül edilsə, ayeyi-kərimədə buyurulduğu kimi Allah insana gözləmədiyi yerdən ruzi verər:

Allaha möhtac olduğunu bilən və yalnız Ondan kömək istəyən, yalnız Ona təvəkkül edən mömin başqa qullara əsla əl açmaz. Bu mənada istiğna tərifəlayiq bir mömin xüsusiyyətidir. Başqalarından istəmək, üzünün suyunu tökməyə alışmaq insanın iffət və həya duyğularını da zədələyər. Ruzinin Allahdan olduğuna inanan kəs bəndələrə bel bağlamamalıdır.

"Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü (hədd, müddət) təyin etmişdir." (ət-Talaq, 2-3)

Xüsusilə Allahın əmrlərinin açıq-aşkar tapdandığı yerlərə, müştəri və işçi olaraq getməmək buğz-fillah / Allah üçün qəzəb ibadətinin bir zərurətidir.

Allah Rəsulunun bir neçə əsr əvvəl həlak edilən bir qövmün xarabalıqlarından götürülən suları boşaltdırması bu kimi yerlərin mənəviyyatımıza olan zərərlərini göstərmək baxımından nə qədər mühüm bir misaldır.

Xülasə, dünya həyatı bir səfərdir və bu səfərin axirət yurdunda getmək istənən ünvana görə təyin edilməsi zəruridir.

Ya Rəbb!.. Bizi Sənin yolunda cəhd göstərənlərdən et... Ürəklərimizə dünya sevgisini, vücudumuza haram və şübhəli loğmanı, cəsədimizə cəhənnəm atəşini haram qıl...

"Allahım! Bizə halal ruzi nəsib edərək haramlardan qoru! Lütfünlə bizi Səndən başqasına möhtac etmə!" (Tirmizi, Dəavat, 110/3563)

Amin!..

İbrahim EROL
İ_erol61@hotmail.com

ZÖHD, TƏQVA VƏ ELM ADAMI

İMAM ƏHMƏD BİN HƏNBƏL

İslam dininin ən böyük fəqihlərindən olan Əhməd bin Hənbəl hicri 164, miladi 780-ci ildə Bağdadda dünyaya gəlmişdir. Əhmədin doğulmasına az qalmış Hənbəl ailəsi Sərahs vilayətindən Bağdada köçüb burada məskunlaşmışdır. Atası vəfat etdiyinə görə təlim-tərbiyəsi ilə anası məşğul olmuşdur. Hələ kiçik yaşlarında Quranı əzbərləyərək hafiz olan Əhməd bin Hənbəl ərəb dilini və hədis elmlərini öyrənmişdir. Həzrət Peyğəmbərin və əshabın həyatını daha dərindən araşdırmışdır.

Elm öyrənmək əzmiylə Bəsrə, Kufə kimi dövrün elm mərkəzlərini gəzmişdir. 3 il İmam Şafei həzrətlərindən dərs almışdır. İmam Şafei onun haqqında "Bağdaddan ayrıldım və arxamda Əhməd bin Hənbəldən daha fəzilətli birini qoymadım." –demişdir. Əhməd bin Hənbəl sonrakı illərdə Əbu Hənifə həzrətlərinin tələbəsi olan məşhur qazı Əbu Yusufdan dərs almışdır. Bu elmi səviyyə ilə birlikdə hədislərdən hökm çıxarma və həmin hökmlərə başqa mövzuları qiyas edə biləcək qədər fiqhə hakim olmuşdur.

Əhməd bin Hənbəl eyni zamanda üstün əxlaq və heç kimi incitməyəcək bir xarakter sahibi idi. Elmi, sahib olduğu zöhd və təqvası səbəbiylə söhbətlərində beş min adamın iştirak etdiyi rəvayət olunur. Allaha bağlılığı səbəbiylə hədsiz dərəcədə təvazö sahibi idi. İnsanlara kömək etməyi sevərdi. Hamının dərdinə əlac olmağa çalışardı. Yoxsul insanları himayə edərdi. Bir iş görərkən tələsməzdi. Vüqarlı, təmkinli idi. Məscidə gedəndə ön səfə keçməyə can atmazdı. Harda boş yer varsa, orada oturardı. Çox ibadət edər, hər gecə Quranın yeddidə birini oxuyardı. Yatsı namazından sonra bir az yatar, ardınca səhərə kimi ibadətlə məşğul olardı. Gecə namazını tərk etməzdi. İnsanlara yük

olmazdı, yeməyə heç nə tapmadıqda heç kimə əl açmazdı. Çox vaxt yoxsulluq səbəbiylə çörəyini sirkə ilə yeyərdi. Onu daha çox məsciddə, cənazə namazında və xəstə ziyarətində görərdilər. Ucuz parçadan libas geyinər, az yeyərdi. "Öləcək olan üçün bunlar da çoxdur" –deyərdi.

Tez-tez tələbələrinə belə deyərdi: "Elm insanlara su və çörək kimi lazımdır. Elm rəvayət, quru məlumat və savadın çoxluğu deyil. Elm faydalı olan və əməl edilən şeydir." Həmçinin belə deyərdi: "Bəndənin qəlbini islah etməsi üçün yaxşılarla bərabər olması qədər faydalı bir şey yoxdur. Bəndənin fasiqlərlə birlikdə olması qədər də zərərli bir əməl yoxdur."

Əhməd bir Hənbəl böyük hədis alimi idi. Başqa bir dəlil olmadıqda zəif hədisləri dəlil sayaraq onlarla əməl edərdi. Çünki zəif hədislə uydurulmuş hədis eyni şey deyil. Hansısa mövzu haqda ayə və hədis olmadıqda qiyas edərdi. Xüsusilə bir məsələnin əksinə ayə, hədis və ya səhabə sözü kimi dəlillər yoxdursa, o mövzuda "məsləhət"i, yəni cəmiyyətin faydasını əsas götürərdi.

Dövründə böyük günah işləyənlərin kafir olacağını söyləyənlərə qarşı o böyük imam və elm adamı bugünün özündə belə bizə dərs və ibrət olacaq cavablar vermişdir. O, belə deyirdi: "Mömin öz halını Allaha həvalə etməlidir. (yəni Allaha inanan insan başqası bir tərəfə, özü haqqında belə "sən müsəlmansan" və ya "kafirsən" deyə hökm verə bilməz, verməməlidir.) Günahlar Allahın məğfirət qapısını bağlamaz. Hər şeyin – xeyir və şərin Allahın qəza və qədəriylə olduğunu bilər. Yaxşılıq edən üçün Allahdan ümidini kəsməz, pislik edənin də aqibətindən qorxar. Məhəmməd ümmətindən heç kim etdiyi yaxşılıq səbəbiylə cənnətə və qazandığı günah səbəbiylə cəhənnəmə girməz. Bu xüsusda Allahın istədiyi olar."

Günümüzə işıq tutacaq bir məsələ də Əhməd bin Hənbəlin oxunan Qurandan hasil olan savabın ölənlərin ruhuna bağışlanması ilə bağlıdır. Əhməd bin Hənbəl qəbir üstündə Quran oxunmasını əvvəlcə bidət saymış, lakin daha sonra bu fətvasından dönərək qəbiristanlıqla da Quran oxumağı və bu qiraətdən hasil olan savabın ölülərin ruhuna bağışlanmasını mübah və halal saymışdır.

Əhməd bin Hənbəl Məhəmməd bin Qudamə əl-Cövhəri ilə bir cənazənin dəfnində iştirak edirdi. Məzarlıqdan ayrılarkən qəbrin yanında kor bir adamın Quran oxuduğunu görüb "Ey filankəs, qəbir üstündə Quran oxumaq bidətdir", -deyərək qiraətinə mane olmuşdu. Bunun üzərinə Məhəmməd bin Qüdamə Əhməd bin Hənbəldən, Mübəşşir bin İsmayıl əl-Hələbidən gələn bu hədisi ona oxumuşdur.

Səhabədən Ləclac (r.a) (120 / 738) oğluna vəsiyyət edərkən belə demişdi: "Oğlum, mən öləndə məzara dəfn et. Məni məzara qoyanda "Bismillah və alə milləti Rəsulillah" -de. Sonra da üstümə torpaq atıb düzəlt. Daha sonra da baş tərəfimdə Bəqərə surəsinin əvvəlini və son qismini oxu. Çünki Həzrət Peyğəmbərin belə dediyini eşitdim." Bunu eşidən Əhməd bin Hənbəl qəbirdə Quran oxumağın bidət olduğunu dediyi adamın çağırılmasını və qiraətinə davam etməsini istəmişdir. Həmçinin Əhməd bin Hənbəlin belə dediyi nəql edilmişdir:

"Qəbiristanlığa girdikdə Ayətəl-Kürsi və üç dəfə İxlas surəsini oxuyaraq belə dua edin: Allahım! Onun savabını bu qəbir xalqına çatdır."

Başqa bir rəvayətdə isə Əhməd bin Hənbəl "Fatihə surəsini, Muavizəteyn və İxlas surələrini oxuyun. Sonra da bunu qəbir sakinlərinə bağışlayın! Çünki o, ölülərə çatar." –buyurmuşdur.

Uca Allah bizə bu böyük alimləri anlamağı və cənnətdə onlarla birlikdə olmağı nəsib etsin. Amin.

Şair Nurullah GENÇ: Biz mədəniyyətimizə şeir mərkəzli ədəbiyyatı hakim qılmış bir millətik.

Nurullah Genç kimdir?

Prof. Dr. Nurullah Genç 1960-cı ildə Xorasan-Ərzurumda anadan olmuşdur. Müasir türk şairi, akademikdir. 1983-cü ildə Atatürk Universiteti İqtisadi və İdari Bilimlər Fakültəsinin Menecerlik Bölümündən məzun oldu. Həmin universitetdə magistraturasını tamamladıqdan sonra doktor, dossent və professor ünvanlarına layiq görüldü. Hazırda İstanbul Ticarət Universiteti Ticari Bilimlər Fakültəsinin müəllimidir.

1987 Kültür və Turizm Bakanlığı Roman Təşviq Mükafatı laureatı (Tutkular Keder Oldu romanı ilə).

1990 Türkiyə Diyanət Vəqfi Böyük Nəti-Şərif Mükafatı laureatı (Yağmur şeiri ilə).

1996 Doğu Anadolu Gazeteciler Cemiyeti Kültür Hizmet Mükafatı laureatı.

1998 Tuzla Bələdiyyəsi Gül Şiirleri Armağanı Mükafatı laureatı (Gül ve Ben adlı əsəri ilə).

1999 Türkiyə Yazıçılar Birliyi İlin Şairi Mükafatı laureatı (Hüznün Lalesidir Dünya əsəriylə).

İrfan: *Nurullah bəy, mədəniyyətimizdə ədəbiyyatın yeri nədir?*

Nurullah Genç: Sahib olduğumuz mədəniyyəti digər mədəniyyətlərdən fərqləndirən müəyyən nüanslar var. Biz mədəniyyətimizə şeir mərkəzli ədəbiyyatı hakim qılmış bir millətik. Qədim dastanlarımızın formalaşdığı dövrlərdən bugünə qədər şeirlə yaşamış, şeiri yazmış, yaşamış, hətta sultanlarının 70-80 faizi şair olan bir millətik biz. Osmanlı İmperiyasını düşünək. Dövlətin genişləndiyi, üç qitəyə yayıldığı çiçəklənmə dövrünün sultanları eyni zamanda şair idi. Qanuni şair, Fateh Sultan Mehmed şair, Yavuz Sultan Səlim şair... Üstəlik elə-belə şair deyillər. Divanları olan, çox güclü şeirlər yazmış şairlərimizdir. Qanuninin dövrün müftisi Əbussuud Əfəndidən fətva istəyərkən ona şeirlə müraciət edişi məşhurdur. Saray bağçasındakı armud ağaclarını qurudan qarışqaların öldürülməsi üçün bu beytlə fətva istəmişdi:

Dırahta gər ziyan etsə qarınca
Zararı var mıdır anı qırınca

(Yəni məhsula zərər verən qarışqaları öldürməyin şəriət nöqteyi-nəzərindən bir zərəri varmı?

Əbussuud Əfəndi də şeirlə cavab verir:

Yarın Haqqın divanına varınca
Süleymandan haqqın alır qarınca.

Bunun kimi saysız misallar vermək olar. Söz sənətinin həyatımızdakı rolu çox böyükdür. Bu da öz növbsində mədəniyyətimizə damğasını vurub. Divan ədəbiyyatımızı tədqiq edərək Osmanlı dövrünün iqtisadi quruluşunu qələmə almış elm adamları var. İqtisadi düşüncə dövrün divan şeirlərinə əks etmiş. Məsələn, Füzulinin *"Salam verdim, rüşvət deyil almadılar"* sözü məşhurdur. Hər bir dövrün mənfiləri də, müsbətləri də şeirimizdə öz əksini tapmışdır. Şeir, sənət, ədəbiyyat sadəcə cəmiyyətin imtiyazlı təbəqəsini əhatə etmir. Bu və bu kimi ünsürlər millətin malıdır, insanların ortaq mədəniyyətidir. Xalq şeirimizə, türkülərimizə, divanlarımıza baxın. Hər bir xalq şeirinin arxasında bir tragediya, dram yaşanmışdır. Bizdə ədəbiyyat dedikdə ilk növbədə ağla şeir gəlir. Bizdə hekayə, roman, esse tərzinin az inkişaf etməsinin səbəbi şeir üzərində köklənməmizdən qaynaqlanır. Bunu qəbul etmək lazımdır. Ədəbi janrların inkişafı yüzillər tələb edir. Burada siyasi, sosial hadisələr də mühüm rol oynayır. Əgər ölkə inkişaf etməyibsə, ədəbiyyat da bundan təsirlənir.

İrfan: *Əfəndim, mədəniyyətimizi şeirsiz tsəvvür etmək nə dərəcədə doğrudur?*

Nurullah Genç: Hər şeydən əvvəl qeyd edək ki, mədəniyyətimiz rassional ağıldan çox qəlb üzərində dayanır. İşin əsasında eşq var, sevgi var. Sevgi və eşqi ən gözəl tərənnüm edən ədəbi janrsa məhz şeirdir. Buna görə babalarımız şeiri həyatımızın mərkəzinə yerləşdirmişlər. Bu gerçəyi gördüyümüz zaman işin məğzini çözmüş olarıq. Toplumdan şeiri qoparsanız, onu mədəniyyətdən qoparmış olarsınız. Bu gün insanımız öz mədəniyyətinə nə qədər vaqifdir? Türkiyədə bir şeir kitabı nə qədər tirajla çap olunur? Maksimum bir neçə min tiraj. Bəs satılırmı? Təbii burada şairlərdən də qaynaqlanan bəzi neqativ hallar var. Amma Yəhya Kamalar, Nəcib Fazillər də o qədər satılmır. Halbuki ildə ən az yüz min satılması lazımdır. Yunus Əmrəni, Füzulini oxumayan bir insanın öz mədəniyyətini tanıması nə qədər mümkündür? Mədəniyyətimizin izləri oradadır. Şeir bizi düşünməyə sövq edir. Şeir insanı hikmətin dalğalarıyla qovuşdurur, həqiqətin işıqlarını əks etdirir. Fəlsəfəyə qapı açar, amma fəlsəfə deyil, sosiologiyaya qapı açar, amma sosiologiya deyil. Psixologiya ilə iç-içədir, amma psixologiya deyil. Həyatın özüdür şeir. Həyatın içində də bu saydıqlarımız az, ya da çox var. Bunların bir araya gəlməsi mədəniyyəti formalaşdırır.

Mədəniyyətimiz rassional ağıldan çox qəlb üzərində dayanır. İşin əsasında eşq var, sevgi var. Sevgi və eşqi ən gözəl tərənnüm edən ədəbi janrsa məhz şeirdir. Buna görə babalarımız şeiri həyatımızın mərkəzinə yerləşdirmişlər.

İrfan: *Sizin ədəbiyyata marağınız, özünüzü şeirə vermənizə necə gerçəkləşdi? İlk şeirlərinizi necə qələmə aldınız?*

Nurullah Genç: Gözəl sual verdiniz. Mənim bəxtim onda gətirdi ki, ədəbiyyat aşiqi bir ailədə böyüdüm. Yaşadığım kənddə məktəb yox idi, amma şeir oxunurdu. Atam, əmilərim, babam öz yaşıdları ilə uzun qış gecələrində bir evə yığışıb şeirlər oxuyardılar. Mənzum əsərlər oxuyardılar. Battal Qazi dastanını, Koroğlu dastanını, Əsli-Kərəmi və neçə-neçə dastanı şeirlə dinlədim mən. Üstəlik təğənni ilə söyləyərdilər. Pərvanə kimi şeirin işığına toplaşardılar. Füzulinin şeirlərini ilk dəfə 8-9 yaşlarımda orada dinlədim mən. Soruşsanız bugünkü gənclərin çoxu Füzu-

Atam Niyazi Misrinin divanını əzbər bilirdi. Yunus Əmrənin bütün şeirlərini əzbərləmişdi, Nizami Gəncəvidən əzbər şeirlər oxuyardı. Anam gəncəli olduğu üçün Nizamidən oxuyar və zarafatla "Bax, sizinkilərdən də oxuyuram", -deyərdi. Uşaqlıq illərim bunlarla keçdi.

lidən bir beyt oxuya bilməz. Füzulinin *"Məni candan usandırdı"* qəzəlini avazla dinləyib öyrənmişəm. Atam əlini qulağına qoyub avazla oxuyardı. Sonralar öyrəndim ki, Füzulinin qəzəli imiş. O evlərdə keçən anlarım məni şeirə yaxınlaşdırdı. Xalq şairlərini orada tanıdım. Qaracaoğlanın, Dadaloğlunun şeirləri əzbər oxunurdu. Atam Niyazi Misrinin divanını əzbər bilirdi. Yunus Əmrənin bütün şeirlərini əzbərləmişdi, Nizami Gəncəvidən əzbər şeirlər oxuyardı. Anam gəncəli olduğu üçün Nizamidən oxuyar və zarafatla "Bax, sizinkilərdən də oxuyuram", -deyərdi. Uşaqlıq illərim bunlarla keçdi. Əmimin oğlu vardı, doqquz yaşım olanda Kərəm türküsünü qulağıma pıçıldayar mən də məclislərdə oxuyardım. Bir gün atama: "bu uşaq şairdir, Murad Çobanoğlunun, Yaşar Reyhaninin yanına qoyaq, xalq şairi olsun, ozan olsun", -demişdi. Atam bu sözə hirslənərək "Mən onu oxudacağam", -demişdi. Əmim oğlundan bu qənaətə necə gəldiyini soruşanda belə cavab vermişdi: "Qulağına Kərəmin türküsünü oxuyuram. Bəzən unutduğum yeri o tamamlayır." Sonralar orta məktəbdə oxuyarkən, universitet illərində ədəbiyyat jurnallarına şeirlər yazdım. Ustadların yanına getdim, onlardan şeirlə bağlı dəyərli məlumatlar, dərslər aldım. Jurnallarda yayımlanan şeirlərimi toplayıb kitab halına gətirdik, mükafatlar aldım. Şairlik yolunu belə keçdim.

İrfan: *Əfəndim, Türkiyədə və Azərbaycanda məşhur olan bir şeiriniz var: Yağmur. Yağmur şeiriniz Azərbaycanda çox tanınır. Müəllifi tanımayanlar belə bu şeirinizi sevə-sevə dinləyir. "Yağmur"un meydana çıxışını bizimlə paylaşmanız oxucularımız üçün də sürpriz olardı.*

Nurullah Genç: Həzrət Peyğəmbərin varlığı ilə sözü şərəfləndirmək adına yazılmış bir şeirdir Yağmur. Müsəlman olan hər şairin mütləq bir nətinin olmasına inanıram. Rəsulullah üçün nə isə yazmaq zərurəti hiss etməlidir müsəlman şair. Sezai Karakoç: *"Nət şeirin üfüqüdür"*, -deyir. Bu, o deməkdir ki, şeirin son nöqtəsində nət var. Həzrət Peyğəmbər Allahın öz adı ilə yanaşı ismini zikr etdiyi yeganə varlıqdır. Bir kərə bilməliyik ki, Onun bizim tərifimizə, mədhlərimizə heç bir ehtiyacı yoxdur. Allah-Təala Onu bir günəş kimi insanlığın üfüqünə qoyub. Bizim ehtiyacımız var Onu mədh etməyə. Mən bir şair olaraq sözümü Onunla qiymətləndirməyin dərdində idim. 1980-90-cı illərdə, tam 10 il bunun çiləsini çəkdim. Mən niyə nət yaza bilmirəm, niyə nətim yoxdur? Dəfələrlə cızma-qara etdim, cırıb atdım. Onlarla nəti-şərifi incələdim, oxudum. On illik bu çilənin nəticəsində Allahın mənə nəsib etdiyi bir şeirdir Yağmur. Mənə onu yazacaq ruhu, qəlbi Allah verdi.

Avtobusla bir yerə səyahət edirdim. Pəncərədən çölə baxarkən ora-bura tələsən insanları gördüm. Bunlar hara gedir? Bu gedişat nədir? Öz-özümə "hara gedirsiniz?", ayəsini xatırladım. Xəyallarım Həzrət Peyğəmbərin zamanına getdi, Hz. Həmzənin şəhadəti yadıma düşdü. Uhuddan Osmanlının süqutuna qədər tarixi bir

dəhliz açıldı gözlərimin önündə. Uhudda oxçuların Hz. Peyğəmbəri dinləmədikləri üçün döyüşdə məğlub olmaları ilə Osmanlını idarə edənlərin Rəsulullahın sünnəsindən ayrılışları ilə qocaman bir dövlətin süqutu arasında körpü qurdum. Və biletimin arxasına qeyri-ixtiyari bunları yazdım:

"Sensiz ufuklarıma yalancı bir tan düştü,
Sensiz kıtalar boyu uzayan vatan düştü.
Bir kölelik ruhuna mahkum olunca gönül
Yüzyıllardır dorukta bekleyen sultan düştü."

"Yağmur"un ilk yazılan misraları bunlar oldu. Şeirin tamamlanması iki ay yarım çəkdi. Həmin müddət ərzində içimə qapandım, dost-tanışla əlaqələrim zəiflədi. Evdə xanımım tərəddüdlə nə baş verdiyini düşünürmüş. Məni bu halda görüb təlaş keçirirmiş. Şeiri bitirdikdən sonra bütün tanışlarımı toplayıb məsələni izah etdim. Bir nət qələmə aldığımı söylədiyim zaman çox sevindilər. Xəstələndiyimi düşünmüşdülər. Öz aralarında məni xəstəxanaya aparmağı planlaşdırırdılar. Sonra şeiri Diyanət İşləri Başqanlığının "Nət Yarışması"na göndərdik, orada da birinci seçildi. Şükürlər olsun. Hər halda səmimi yazdığım üçün buradakı qardaşlarımızın da dünyasında özünə yer edib həmin şeir. Yenə etiraf edirəm, mənim "Yağmur"a verəcəyim heç nə yoxdur, onun mənə verəcəkləri var. "Yağmur"da Peyğəmbərimiz var, mən Ona qiymət verə bilmərəm, əksinə, O məni qiymətləndirər. Şeir çox yuxarılarda, mən aşağıdayam. Tamamən Allahın məni bu işə vəsilə qıldığına inanıram.

İrfan: *Bildiyimiz kimi şairliklə yanaşı başqa işlərlə də məşğulsunuz. Universitetdə dərs verirsiniz, fərqli yerlərdə menecerlik fəaliyyətləriniz var. Bütün bunlar sizin şairliyinizə çətinlik yaradırmı?*

Həzrət Peyğəmbərin varlığı ilə sözü şərəfləndirmək adına yazılmış bir şeirdir Yağmur. Müsəlman olan hər şairin mütləq bir nətinin olmasına inanıram. Rəsulullah üçün nə isə yazmaq zərurəti hiss etməlidir müsəlman şair. Sezai Karakoç: "Nət şeirin üfüqüdür", -deyir. Bu, o deməkdir ki, şeirin son nöqtəsində nət var.

Nurullah Genç: Açığı, xeyli çətinlik çəkirəm. Universitetdə işləyirəm, peşəmlə əlaqədar başqa işlərim var, məsləhətçi qismində çalışıram, ədəbiyat və incəsənət proqramlarında iştirak edirəm, radio-televiziya verilişlərinə çıxıram, müxtəlif yerlərə ədəbi məclislərə gedirəm. Məsələn, bu gün Azərbaycandayam, iki həftə sonra Əlcəzairə getməliyəm. Əlbəttə ki, bütün bunlar yorucudur. Lakin bu qədər çətinliklərin sonunda işin bərəkətini görmək çox sevindirici olur. Yorğunluğum tamamən çıxır. Yanlış bir deyim var: "Bir əldə iki qarpız tutmaq olmaz." Tuta bilən tutar. Yetər ki, üsulunu biləsən. Torbaya doldursan, onunu da tutarsan. Elə bir zəmanədə yaşayırıq ki, bir neçə qarpızı daşımaq məcburiyyətindəyik. Təkboyutlu ola bilmərik. Xüsusilə də bir mömin təkboyutlu olmamalıdır. Çünki həyat çoxboyutludur. Mən buna çalışıram. Səmimi niyyətimlə cəmiyyət üçün faydalı olmağa çalışıram. Allah da bərəkət ehsan edir. Buralara gətirib sizlərlə tanış edir. Ölkəmdən kilometrlərlə uzaqda Yağmur şeirimi sevən qardaşlarımın olduğunu görürəm. Hamısı Allahın bəxş etdiyi gözəlliklərdir.

İrfan: *Ustad, sizin bir "Gülnarə" şeiriniz də var. Azərbaycanlı bir qızamı yazılmış bu şeir? Şeirin tarixçəsini bizimlə paylaşardınızmı?*

Nurullah Genç: Şeirdə *"Nerdesin ey masallar ülkesinin son kızı?"* ifadəsi var. Burada konkret qız qəsd olunmur. Bildiyiniz kimi bizim təfəkkürümüzdə vətən anadır, gənc qızdır. Tam səmimiyyətimlə söyləyirəm, "Gülnarə" bir vətən şeiridir. Zatən *"Azərbaycan ufkunda bir divanedir gönül", "nerdesin ey Baküden, Genceden esen rüzgar?"* ifadələri vətən arayışından xəbər verir. Bu arayışın üfüqündə gənc bir qız var. Çünki vətən dişidir, anadır, gənc qızdır.

1996-cı ildə Azərbaycandan yanıma bir qrup gənc tələbələr gəlmişdi. Şeirlərimdən oxudular, bəyəndiklərini söylədilər. Adlarını soruşdum. Azərbaycanda ən çox yayğın olan adlardan birinin Gülnarə olduğunu dedilər. Bu görüşdən sonra həmin şeiri qələmə aldım. Beləliklə "Gülnarə"ni yazdım və çox xoşuma gəldi. Gülnarə alov çiçəyi deməkdir. Nar çiçəyi mənasına gəldiyini düşünmüşdüm, amma elə deyil, "nar" alov, "gül" də bildiyimiz güldür. Alov gülü - Gülnarə Azərbaycanla mənim dünyamda birləşdi. Qarabağ işğal olunmuş, problemlər yaşanmış, Xocalı qətliamı… Bütün bunlar göz önündə tutularaq yazıldı "Gülnarə". Şeirin gerçəyi budur, başqa heç bir gerçəyi yoxdur. Olsa çəkinmədən söyləyərdim. Bütün səmimiyyətimlə etiraf edirəm ki, "Gülnarə" bir Azərbaycan şeiridir.

İrfan: *Nurullah bəy, dəyərli vaxtınızı bizə ayırdığınız üçün sizə təşəkkür edirik. Bütün oxucularımız adından ehtiramımızı ərz edirik.*

Nurullah Genç: Mən də öz növbəmdə sizə minnətdarlığımı bildirirəm. Bu torpaqlardan ayrılarkən azərbaycanlı qardaşlarımla görüşməyin sevincini yaşayıram.

Akif HÜSEYİNLİ

Müdriklərdən öyüdlər

* Könül kimin əlindən tutarsa, o insan kirli arzuların bataqlığına batmaz.

* Ömür qovğalarla hay-küylə və didişmələrlə durmadan tükənir.

* Mənlikdən qurtulan hər şeyə sahib olar.

* Alçaq könüllü olmaq kiçiklik deyildir.

* Can ən son gedəcəyi yerə can atır.

* Allah dostu ilə bir an bərabər olmaq dünyaya aid hər şeyə dəyər.

* Diqqətli ol! Şeytanın sənə verəcəyi rüxsət yollu fətvaları qəbul etmə.

* Bir insan ruzi darlığı çəkərsə, istiğfara davam etsin.

* Papağın altında, yəni başda bir şey yoxdursa o başa qoyulan şeytan başlığıdır.

* Şübhəli və haram işlərdə ata-anaya itaət yoxdur.

* Bir elm adamı sultanın qapısına sığınırsa, o, malın köləsidir.

* Bir din qardaşın qabağa keçməyə həris olarsa, ona nəsihət ver.

* Günah işləyəcəyin vaxt onu Haqdan gizli tut.

* Möminin nişanəsi budur ki, ömrü boyu fikri tək ola, baxdığı ibrət ola, həyata keçirdiyi ibadət ola.

* Fikrin ən yaxşısı səni Haqqa aparandır.

* Qüsursuz qardaş axtaran qardaşsz qalar.

* Hər şeyn bir hazırlığı var, alimlər arasına daxil olmağın hazırlığı da qeybəti tərk etməkdir.

* Qeybət saxta alimlərin meyvəsidir.

* İstədiyi bir dünyalığı ona vermədiyin üçün səndən küsən şəxsdən sənə qardaş olmaz.

* Qurani-Kərimi oxuyub mənasını anlayan şəxs peyğəmbərlərin təbliğ etməklə məsul olduğu əmrlərdən məsuldur. Çünki onlar peyğəmbərlərin varisləridirlər.

* Elm əhli olanlar dünyalığa qarşı gözütox olsaydılar, zalımlar qarşılarında yumşalar və bütün insanlar onlara hörmət göstərərdi.

* Hər kim mədəsinə girənin halal və haram olduğuna diqqət edərsə, o, Allah dərgahında siddiqlərdən yazılar.

* Ey həqiqət axtaran, əgər əməlinin nöqsansız olmasını istəyirsənsə, gəncliyində ibadət və itaətə ciddiyətlə davam et.

Adem ŞAHİN
ameha0@hotmail.com

SEVMƏK İMANDANDIR, SÖYMƏK DEYİL!

İngiltərənin Keeli Universitetində könüllülər üzərində aparılan tədqiqat nəticəsində onların söyüş söyərkən ağrıya daha dözümlü olduqları aşkarlandı.

Tədqiqat nəticələri haqda Neuroreport jurnalında nəşr edən araşdırmaçılar eksperiment apardıqları insanlardan istədikləri söyüşü söyərək əllərini buzlu suyun içində uzun müddət saxlamalarını istədilər. Daha sonra eyni işi söyüş söymədən, bir stolu tərif edərək etmələrini istədilər.

Tədqiqatda könüllülərin söyüş söyərkən əllərini buzlu suda 40 saniyədən daha artıq saxladıqları müşaidə edildiyi halda, daha az acı çəkdikləri müəyyən oldu. (Radikal Qəzeti 14.07.2009)

Yazının başlığına və bu xəbərə baxaraq təəccübləndiniz yəqin ki. Bu yazının məqsədi əsla söyməyi məşrulaşdırmaq deyil. Məşru olmayan söyüş növlərini uşaqlıq illərimizdən bəri yaxşı, üstəlik çox yaxşı bilirik.

Odun yaran adam baltanı vurarkən hıhh səsi çıxarır. Türk dilində "odun yaranın hınk deyəni" mənasına gələn bir ifadə var.

Düşmənə hücum edərkən kimisi nərə çəkər, kimisi də Allah deyərək önə atılar.

Maşını sürətli sürərkən, hündürdən tullananda da qəribə səslər çıxarılır. Bu kimi səslər adrenalinin ifrazını artıraraq cəsarət və həyəcanı artırır.

Qışqırmaq dözümü artırır. Ağrı və iztirab çəkən adamın qışqırıb-bağırmasının səbəbi budur. Odun yararkən və hücum əsnasında çıxardığımız səslər gücümüzə güc qatar. Osman Nuri Topbaş "Bir Nəsihət Min Bir İbrət" adlı kitabında "insan yığını"ndan söz açır. (səh-12) İnsan yığını "Gənc" jurnalının ifadəsiylə zombiləşmək deməkdir. Zombilərin olduğu yerdə pisliklərə, dördnala qaçan atlar belə çatmaz. Elə isə müsəlmanın vəzifəsi pisliyi qəbul etmək deyil, onu düzəltməkdir. Əli və dili ilə nəticə ala bilməzsə, qəlbi ilə nifrət etməlidir. Qəlb ilə pisliyə qarşı bəslənən nifrət və qəzəb dildən söyüş olaraq çıxar.

Neyzən Tevfikə görə (1879-1953) "Söyüş dilin duzu-istiotudur. Söyüş əsəbsakitləşdiricidir." Uşaqlarına söyüş söydürən və eşitdiyi söyüşə görə sevinən bir cəmiyyətdə yaşayırıq. İmamlarımız qəlbin cilasının Quran oxumaq və zikrullah olduğunu hər cümə günü vəz etdiyi halda, söyüş ustalarımız hər an "söymək di-

lin cilasıdır, ruhun yelpazəsidir" –deyə təxribat aparmaqdadırlar.

İslami əsərlərdə pis və ayıb sayılan sözləri ifadə üçün fuhuş temrini işlədilir. Fuhuş "sözün və ya hansısa bir əməlin çox çirkin olması, həddi aşmaq" mənalarına gəlir. Cinsi orqanların adını, dəstəmaz pozmaq üçün işlənən sözləri dilə gətirmək fuhuşdur. Bunlar kinayə yolu ilə söylənməlidir.

Haqsızlığa qarşı səssiz qalmaq qəlblə də olsa etiraz etməmək Hz. Əlinin ifadəsiylə "dilsiz şeytan" olmaqdır. İslamın şərtinin beş olduğunu zənn edənlər yanılırlar. İslamın ibadət nöqteyi-nəzərindən şərti beşdir. Davranış olaraq 6-cı şərti həddini bilmək, 7-ci şərti həddini bildirməkdir. "Hədsizə həddini bildirmək yetimə kaftan geydirmək kimidir" –demişlər.

"Qaranlığı söyməkdənsə, qalx bir şam yandır" deyən insanlar şam kimi tarixə qarışıb nostalji oldular. İnsanlar danışa-danışa, heyvanlar qoxulaşa-qoxulaşa anlaşır (Sosial medya adalanan Facebook, MSN, Twitterlə yazışaraq anlaşmaq da var) deyirik. Bəzi insanların üçüncü qrupa girdiyini düşünürəm. Söyüş söyə-söyə anlaşan qrup. Bu qrupda olanlar təbrik, həsrət, şəfqət, zarafat, təşəkkür, sevgi, vərdiş, enerji atmaq, dəliqanlı adam kimi görsənmək və s. səbəbdən söyüş söyürlər.

Söymə səbəblərindən biri də söyüşə söyüşlə cavab verməkdir. İnsan ayağını dişləyən köpəyin ayağından yapışıb eyni hərəkəti edə bilməz. Söyənə söyüşlə cavab vermək də bu qəbildəndir və alçalma səbəbidir. Müsəlman ağzını küfrə və lənətə alışdırmamalıdır. Layiq olana belə lənət etmək xeyir və müstəhəb deyil, adama savab qazandırmaz.

Rəsulullah (s.ə.s)-ə "Ey Allahın Rəsulu, müşriklərə bəddua et, onları lənətlə!" –demişdilər. Allah Rəsulu bu cavabı verdi: "Mən rəhmət olaraq göndərildim, lənətləyici deyil!" (Müslim, Birr, 87) Rəhmət Peyğəmbərinin ümmətinin söyüş xüsusunda dünyada məşhurlaşmaması lazımdır. İslam əxlaqına və müsəlman şəxsiyyətinə görə insanların islahını istəmək əsas yerdə olmalıdır, söyüş söymək yox. Başqa din mənsublarının dəyərlərinə söymək olmaz. **"Onların ilahlarına söyməyin ki, onlar da sizin ilahınıza söyməsin."** (əl-Bəqərə, 197)

Söyüş söymək qarşıdakı insanı xor görərək həqarət etməkdir. Hədisi-şərifə görə "Şər olaraq insana müsəlman qardaşını xor görməsi kifayətdir…" (Buxari, Nikah, 45)

Ölmüş bir adam həqarətə layiq olsa da yaxınlarını fikirləşərək söyməkdən vaz keçmək lazımdır.

İkrimə müsəlman olmaq üçün Məkkəyə yaxınlaşdığı zaman Həzrət Peyğəmbər "Əbu Cəhlin oğlu İkrimə gəlir. Diqqət edin, atasına söyməyin. Çünki ölüyə söymək ona çatmaz, üstəlik yaxınlarını da incidər." –dedi. (Tirmizi, Birr, 48)

Mövlanaya görə dərd və iztirablar insanın daxilindəki duman kimidir. Daxilində duman olan insanları dinləyərək dərdlərinə yardımçı olaraq dumanları çıxarılmalıdır. Qəzəblənərək söyməyə səbəb olan hallar da insanın daxilindəki dumana bənzəyir. Bəziləri "ya səbir" deyərək dəstəmazla, salavatla, bismillahla, yer dəyişməklə, zikrlə, bəziləri də pis sözlərlə bu dumanı çıxarırlar. Pis sözlə duman çıxarılarkən ana, bacı, yoldaş kimi dəyərlərə söyülməməli və fuhuş deyilən pis sözlər işlənməməlidir. "Hirs gələr göz qızarar, hirs soyuyar üz qızarar" demişlər. İnsan deyil, pis əməl qınanmalıdır. Hirsləndiyimiz adama "Allah canını almasın, Allah cəzanı verməsin, Allah səni cənnətə həbs etsin, məni də başına qarovulçu qoysun" kimi içində lənət olmayan sözlər söyləməliyik.

Nəticə: Allah üçün sevmək və qəzəblənmək birliyi ilə dumansız ürəklərə doğru… Əsas məsələ budur.

Mübariz ƏLİOĞLU

ALLAHIN ƏZABI

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"(Ya Rəsulum) Kaş, Sən kafirləri mələklər onların üzünə və yanlarına vura-vura – "Dadın atəşin əzabını! – deyib canlarını alanda görəydin." (əl-Ənfal, 50)

Yaşadığımız dünya həyatının qanunauyğun axarı bizləri hər an öncədən qərarlaşdırılmış sonluğa aparmaqdır. Dünyəvi sonluğun davamından qəbir həyatı və onu da əvəzləyəcək olan qiyamət meydanı məxluqatın haqlarının alış-veriş məkanı kimi bütün heybəti ilə bizləri gözləməkdədir. Axirət aləminin mürəkkəbliyini bir an olsun unutmamaq və dünyəvi cazibəyə məğlub olmamaq məqsədilə Hz. Ömərin sərgilədiyi davranış qəbir və axirət aləmlərinin yaxınlığını varlığımızda hiss etdirəcək dərəcədədir: Xəlifəlik fəaliyyətinə başlayan Hz. Ömər öz vəsaiti hesabına bir adam tutmuşdu. Bu adamın işi günün müəyyən saatlarında Hz. Ömərin yanına gələrək ona: - Ya Ömər! Allahdan qorx, ölüm var! – deməkdən ibarət idi. Bir gün Hz. Ömər aynaya baxarkən saç və saqqalının ağardığını gördü və həmin adamı çağıraraq ona bunları söylədi: - Aynada gördüyüm ağarmış olan saç və saqqalım mənə ölüm xəbərçisi olaraq yetər. Sən mənə ölümü müəyyən saatlarda xatırladırdın, bunlar isə hər zaman xatırladır."

Əslində, gecənin gündüzlə əvəzlənməsi, fəsillərin dəyişməsi, nəsillərin bir-birini əvəz etməsi və bir çox örnəklərlə bol olan dünya həyatı bizə Allah tərəfindən endirilməsində heç bir şəkk-şübhə olmayan kitabımızda bəhs edilən hadisələrin növbə ilə insanlıq tərəfindən yaşanacağını bildirir. Ölümdən sonrakı həyatın puç olması xəyalları isə müvəqqəti dövranını sürdürən insan övladlarının axirət aləmindən dünyanı dəyərləndirmələri nə qədər də təəccüblüdür. Artıq ilahi cəzanın şiddətindən qurtulmaq üçün indi də az qala dünyanı inkar etmələri insanları bu dünyada haqqa yönəlməyə vadar edəcək misilsiz bir örnəkdir:

"Qiyamət qopacağı gün (saat) günahkarlar (qəbirlərində və dünyada) bir saatdan artıq qalmadıqlarına and içərlər. Onlar (axirətdə belə yalan danışdıqları kimi, dünyada da batilə uyub haqdan) belə döndərilirdilər (yoldan çıxardılırdılar)." (ər-Rum, 55)

Adəm övladının mənliyində gedən dünya və axirət qarşıdurmasının axirətin

lehinə həll edilməsi məsələsi Quran ayələrində tam təfsilatı ilə verilməkdədir. Bütün insanlığa ünvanlanmış bu şərəfli məktubun sətirlərini qəlblərdə möhkəmlətmək üçün Məhəmməd əeyhissəlamın xidmətlərindən faydalanmaq yalnız onları ən gözəl şəkildə yaşamaq və yaşatmaqla mümkündür. Uca Allah Rəsulunun dili ilə bunları belə açıqlayır:

"Əlif, Lam, Ra! Bu, ayələri hikmət sahibi, (hər şeydən) agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir Kitabdır ki, Siz Allahdan başqasına ibadət etməyəsiniz. Mən sizi Allah tərəfindən (Cəhənnəmlə) qorxudan və (Cənnətlə) müjdələyənəm." (Hud, 1-2)

İlahi əzabın şəkli və şiddəti gəlməsində heç bir şübhə olmayan Qiyamət günündə bütün gücü ilə nümayiş ediləcəyi, səhabə nəslini bir an olsun belə təhdiddən uzaq qalmamağa çağırırdı. Rəbbimizin dünya həyatında yaratdığı bir çox örnəkləri Quran ayələrinin hökmləri ilə birləşdirən səhabə toplumu axirət səhnələrini sanki baş vermiş hadisə kimi yaşamaqda və o günün şiddətindən çəkinmək üçün bütün qeyrətlərini Allaha həqiqi qulluq amalı üzərində toplamaqla məşğul idilər. Hətta ilahi əzabın dünyadakı örnəyi olan atəşin belə cəhənnəmin şiddətindən sığınması səhabə qəlbini titrədən məqamlardan biri idi. Bu haqda Rəsulullah belə buyurur:

"Dünyadakı bu atəşinizin istiliyi cəhənnəm atəşinin istiliyinin yetmişdə biri qədərdi. Əgər o atəş su ilə iki dəfə yuyulmasaydı ondan faydalana bilməzdiniz. Dunya atəşi cəhənnəmə qayıtmamaq üçün Allaha dua edir." (Əbu Davud)

Kab (r.a) bunları söyləmişdi: Bir gün Hz. Ömərin yanında idim. Mənə yönələrək dedi ki: Ey Kab! Bizi cəhənnəm əzabından qorxut. Dedim ki: "Ey Əmirəl möminin! Qiyamət günü Cəhənnəm elə bir nərə çəkər ki, diz üstə səcdəyə getməyən nə bir müqərrəb mələk, nə də peyğəmbər qalar. Hətta İbrahim Xəlil əleyhissalam "nəfsi, nəfsi - mən, mən" - deyəcəkdir." Hz. Ömər başını düşüncəli şəkildə önünə əydi. Dedim ki: Ey Əmirəl möminin! Siz bunu Allahın kitabında görmüsünüzmü? Hz. Ömər – Necə? – deyə soruşdu. Dedim ki: Allah-Təala belə buyurur: **"O gün (qiyamət günü) hər kəs öz canının hayında olar, hər kəsə əməlinin əvəzi (cəzası) verilər və onlara heç bir haqsızlıq edilməz!"** (ən-Nəhl, 111)

Əzabı həmişəlik və şiddətli olan cəhənnəm mövzusuna səhabə toplumunun bu qədər önəm verməsi və dönə-dönə, qətiyyətlə "özünüzü cəhənnəm əzabından qoruyun" şəklində səslənən peyğəmbər xəbərdarlığına sarılmaları örnək olaraq hamımıza yetəcək ölçüdədir. Lakin ilahi xəbərdarlığa və gözlərimiz önündə canlanan səhabə qətiyyətinə önəmsiz yanaşma tərzi Adəm övladlarını son nəticədə Quran sətirlərində verilən şiddət səhnələri ilə canlı formada qarşılaşmaq məcburiyyətində qoyacaq.

Qiyamət rüsvayçılığını önləyəcək səmimi bir qulluq məsuliyyətinə sarılmağı və "Allahım! Qəzəbindən rızana, cəzandan əfvinə sığınıram. Səndən Sənə sığınıram. Sənin şanına ediləcək tərifləri bir-bir saysam bitirə bilmərəm. Sən özünü necə tərif etdinsə, eləsən!",[1] -deyərək Rəbbimizə səslənən Rəsulullahın dua ruhaniyyətinə yönəlməyi Uca Rəbbimizdən acizanə yalvarışlarımızla niyaz edərək əzabından rəhmətinə sığınırıq.

1. (Müslim, Salət 221)

Hasan Enes ÜNLÜ
hasanenesunlu@hotmail.com

CAN AZƏRBAYCANA ƏLVİDA

Azərbaycana gəlişimin düz beş ili tamam oldu. İlk gəldiyim vaxtlarda gəncliyin, daha doğrusu yeniyetməliyimin verdiyi rahatlıqla bura aid məhdud məlumatlarımın bir çoxunun səhv olduğunu öyrətdilər mənə. Məsələn, səhv etdiyim məsələlərdən biri dillərimizin tamamən eyni olması idi. Həddən artıq yaxınlıq var, amma Azərbaycan türkcəsi fərqlidir. Bənzər tərəfləri ilə yanaşı bilinməyən tərəfləri də var. Xüsusilə də burada keçirdiyim beş il ərzində eşitdiyim ən gözəl səs Azərbaycan bölgələrinin müxtəlif ləhcələri oldu. Məsələn, Şəki ləhcəsi…

Yanıldığım başqa mövzular da var. Dilə gətirmək istəməsəm də qeyd edim ki, Azərbaycanı vətənimdən daha şərqdə olduğu üçün soyuq, bir az da kobud xəyal edirdim. Amma buraya gəldiyim ilk gün bu fikrin yanlış olduğunu başa düşdüm. Həmin gün mindiyim taksinin sürücüsü ilə bir-birimizi tam başa düşməsək də aramızda şirin söhbət yarandı. Yaşlı əmi hər dəfə sözə başlarkən mənə "abi" deyə səslənirdi. Aramızda 40 yaş fərq olmasına baxmayaraq o qədər nəzakətlə danışırdı ki, necə cavab verəcəyimi bilmirdim.

Azərbaycan haqqında yazacaqlarımı iki səhifəyə sığdırmaq imkansızdır. Ona görə də burada qeyd edəcəklərim yalnız giriş xarakterlidir. Allah qismət edərsə, gələcəkdə daha ətraflı "Can Azərbaycanı Özlədim" adlı kitabda hisslərimi paylaşacağam.

Həqiqətən, həsrətini çəkəcəyim xüsuslar, yaşanmış anlar var Azərbaycanda. Birinci kursda oxuyarkən Şəkidə keçirdiyim 11 günlük Novruz tətilini heç vaxt unutmayacağam. Zaqatala şəhərində bir avar toyunda ev sahibinin mənə yaxınlaşıb "istəyirsən sənin üçün halay çalsınlar",

-deməsini unutmayacağam. Astarada 11 nəfərin bir otaqda yemək yeməsini unutmayacağam. Mingəçevirin qaranlıq küçələrində qonaq olduğum evin məhələ uşaqlarının mənə göstərdikləri qayğını unutmayacağam. Unudulmaz o qədər xatirələr var ki, inanın, hansını söyləyəcəyimi özüm də bilmirəm.

Mənə Azərbaycanda qalmaq üçün yer verən, çalışıb təcrübə qazanım deyə iş verən, ailəmdən minlərlə km. uzaqda asudə yaşamamı təmin edən Gəncliyə Yardım Fondunu da unutmayacağam. Təbii ki, bu damın altında xidmət eşqiylə çalışan abilərimi də unutmaq imkansızdır.

Məsələn, işləməyim üçün mənə dəstək olan və özümü yetişdirməm xüsusunda köməyini əsirgəməyən Əhməd abimi, birlikdə əlil arabası paylamağa getdiyimiz Salman müəllimi, hər dəfə maddi sıxıntıya düşdükdə rahatlıqla qapısını döyə bildiyim və "Hasan, biz səni çox sevirik", -deyən Nəcməddin abimi, maddi və mənəvi yardımlarını əsirgəməyən, yanında xoş anlar yaşadığım ustadım, əmim, abim, gələcəkdə nikah şahidim olmasını düşündüyüm Əli abimi, 5 il ərzində şənbə günləri bizə söhbət etməkdən yorulmayan Sədat abimi, fanatik Trabzonsporlu İbrahim abimi və üz-üzə görüşmək heç nəsib olmayan, yalnız internetlə görüşdüyümüz Adəm abimi əsla unutmayacağam.

Burada adını zikr etdiklərim Salman müəllimi çıxmaqla Türkiyədən buraya xidmət üçün gələn abilərimdir. Buranın yerli sakinləri olub, öz vətənlərində insanlara xidmət etməyə çalışan, Azərbaycanı və Azərbaycan insanını mənə daha çox sevdirən abilərimi də unutmayacağam.

Məsələn, iş həyatımda ikinci müdirim olan, hər dəfə izin almaq üçün yanına getdiyim zaman söylədiyim bəhanələri könlümü qırmadan qəbul edən Eldar abimi, bəlkə də İstanbulda oxuduğu üçün həmişə dərdimi açdığım Abbas abimi, semestr və il sonlarında məni taksilərin ümidinə qoymayan Sərxan abimi, Azərbaycanda yediyim ən gözəl yeməyi (döşəməli aş) öz əlləri ilə hazırlayıb yedirən Nurlan abimi, daim zarafatları ilə məni güldürən Elşən abimi, qürbətdə ana yeməyinə həsrət qoymayan Mahir abimi, hər zaman sataşdığım, zarafatlaşdığım Ülvi və Ömər abilərimi, yataqxanada qaldığım illərdə problemli tələbə olduğumu bilən, buna baxmayaraq məni ən gözəl şəkildə 3 il idarə edən Şaiq və Nizami abilərimi əsla unuda bilmərəm.

Beş il ərzində münasibətimiz bir o qədər olmasa da eyni atmosferdə çalışdığımız və hər dəfə qarşılaşdıqda mənə gülər üzlə salam verən Namiq, İbrahim, Həsən, Fərasət, Zaur, İsmət, Rasim, Arif, Babaratma və adını çəkmədiyim bir çox abilərimi unutmayacağam.

Səmimiyyətlə söyləyirəm ki, özümü sizin yanınızda xoşbəxt hiss etməmə səbəb oldunuz. Hər dəfə bunu dilə gətirdiyim zaman atam "mənim adımdan bir-bir hamısına təşəkkür et", -deyərdi. Buradan həm atamın adından, həm də öz adımdan Can Azərbaycanda keçirdim bu beş il ərzində nazımı çəkdiyiniz və sahib çıxdığınız üçün hamınıza bir-bir təşəkkür edirəm. Mən sizi və Can Azərbaycanı əsla unutmayacağam. Ümidvaram ki, siz də unutmazsınız. Haqqım varsa halal olsun, siz də haqlarınızı halal edin.

Hörmətlə:

Hasan qardaşınız.

Anar QURBANOV
akurban78@hotmail.com

SUAL CAVAB

1. Nisab miqdarından çox alacağı olan bir şəxs həmin pulun zəkatını verməlidirmi?

Cavab: Başqalarının öhdəliyində olub nisab miqdarına çatan nağd pulları geri alacaq şəxslərin (borc verənlərin) həmin məbləği, zəkata daxil olub-olmaması baxımından üç qismə bölmək mümkündür:

a. Qüvvətli alınacaq borclar: Borc olaraq verilən pullar, nisyə satılan ticarət mallarının əvəzi, borclu borcunu qəbul edirsə və ya borcun sənədlə sübuta yetirilmə imkanı varsa, bunlar qüvvətli alacaq hesab edilir. Ona görə də bu kimi alacaqların keçmiş illərə aid olan zəkatları da verilməlidir.

Qüvvətli və üstündən bir il keçmiş alacaqdan, zəkat verməklə məsul olan şəxs, zəkat nisabının ən az beşdə bir miqdarını əldə etdikdə, bu miqdarın zəkatını dərhal verər. Bundan az olarsa, zəkata daxil başqa malı da olmazsa, zəkatını dərhal verməsi vacib deyil.

b. Orta dərəcədə alınacaq borclar: Ev və ya dükan icarəsi kimi zəkat predmeti olmayan bir əmlakdan gələn gəlirlər bu qismə daxildir. Bu kimi borclarda bir il keçmə müddəti kirəkeşin borclanmağa başladığı tarixdən etibarən başlayır və keçən hər bir il üçün zəkat verilməlidir. Ancaq tam nisab miqdarı qədər əldə edilmədikcə, eləcə də sahibinin zəkata daxil başqa malı da yoxdursa, zəkatını dərhal vermək məcburiyyəti yoxdur. Əbu Hənifədən daha sağlam sayılan bir rəvayətə görə, alınacaq bu kimi borcların keçmiş illərə aid zəkatlarını verməyə ehtiyac yoxdur. Nisab miqdarı qədər borcu alıb bir il keçdikdə və ya zəkata daxil başqa mal varsa, ilin keçməsi gözlənilmədən buna əlavə edilərək zəkatı verilir.

c. Zəif alınacaq borclar: Hər hansı mal əvəzi olmadan başqasının öhdəliyində olan borclardır. Mehr, miras, vəsiyyət, müqaviləli boşanmada qadından alınan müxaliə əvəzi və alınacaq diyə kimi şeylər bu kateqoriyaya daxildir. Məsələn, mehr hər hansı mal mübadiləsindən əmələ gələn borc deyildir. Bu kimi borclardan nisab miqdarı əldə edilib üstündən bir il keçmədikcə zəkat vermək vacib deyil.

Yuxarıda qeyd olunan borcların təsnifatı Əbu Hənifəyə məxsusdur.

Nəticə etibarilə, verilən borcların hər birindən zəkat vermək vacibdir. Ancaq zəkat vermək verilən borcun geri alınmasından sonra fərz olur.

Qüvvətli alınacaq borclarda nisabın beşdə biri alındıqda, orta və zəif borclarda isə, nisab miqdarı qədər alınan zaman zəkat verilməlidir. Bununla birlikdə, bir əvəz qarşılığı olmayan zəif borclar (məsələn mehr kimi), yeni qazanc əldə etmə xarakterli olduğu üçün, bunların üstündən bir il müddət keçməlidir. Zəkata daxil başqa bir mal mövcud olsa, bunlar bir-birinə əlavə edilərək zəkat verilir.

Əbu Yusif və İmam Məhəmmədə görə, diyə istisna olmaqla bütün borclar eynidir və qüvvətli borc kimidir. Əldə olunan borcun üstündən bir il keçməsə belə, zəkat verilir. Çünki borclunun yanında ikən keçən müddət borc verənin yanında keçmiş kimidir (bax. Kasani, "Bədayi", II, 10).

Şafeilərə görə isə, qızıl, gümüş və ya ticarət malının müqabilindəki alınacaq borclar üçün, əldə etmə iqtidarı olduqda, keçmiş illərin zəkatı da verilməlidir. Ancaq alınacaq borc heyvan cinsindən və ya xurma, üzüm kimi qida maddələri qəbilindən olarsa, zəkat vacib olmaz (bax. Şirazi, "Mühəzzəb", I, 142).

3. Birja və hissə sənədinin alqı-satqısı halaldırmı?

Cavab: Birja "dövlətin qurduğu və nəzarət etdiyi xüsusi bazar növü, qiymətli kağızlar, səhmlər, istiqraz vərəqələrinin alınıb-satıldığı müəssisə və ya topdan mal alınıb-satılan müəssisə" kimi tərif edilir. Birja müəssisəsi ticarət və sənaye birjaları, təsərrüfat birjası, qızıl birjası kimi mərhələlərdən keçərək əmələ gəlmiş və getgedə inkişaf etmişdir.

Faizli borc sənədlərini istər dövlət, istərsə də fiziki və ya hüquqi şəxs çıxarsın, bunlar faizlə borc alıb vermək, yəni sələmçilik olduğu üçün caiz deyil. Məzənnəyə indeksli olsa da caiz deyil.

Şirkətin səhmlərinin alqı-satqısına gəlincə, bunları satışa qoyan şirkətin əmlakına görə dəyərləndirmək lazımdır. Belə olan təqdirdə, şirkətin fəaliyyəti, istehsalı və ticarəti halal yoldandırsa, bir mömin buna şərik ola bilər. Bundan əlavə, dövrümüzdəki anonim şirkət anlayışında səhmlərin dəyəri mövzusunda, təmsil etdiyi mallardan qopuq şəkildə birjadakı tələbat müvazinəti pozularaq, birja qiymətlərinə təsir göstərdiyini müşahidə edirik. Buna görə də aşağıda İslamın "səhmin dəyəri" ilə əlaqədar mövqeyi izah olunacaqdır:

Şərik şirkətdən ayrılmaq istədikdə, şirkətin malik olduğu malların bölünməsi mümkün olarsa, ayrılana düşən pay mal olaraq verilə bilər. Əks təqdirdə, onun payına düşən mallara qiymət qoyular və bu payını başqasına sata bilər. Burada satılan malın səhmin kağızı deyil, onun təmsil etdiyi mal olduğunda şübhə yoxdur. Bu prinsipə riayət edilməklə səhmin alqı-satqısı caizdir. Həmçinin, əsas şərtlərdən biri də odur ki, şirkətin istehsalat və ticarət sahəsi halal bir sahə olsun.

İslam Konfransı Təşkilatına bağlı İslam Fiqh Akademiyasının təşəbbüsü ilə 1988-ci il tarixdə keçirilən və birja mövzusunda aparılan tədqiqatların müzakirəsindən sonra həmin Akademiyanın 1992-ci ildə Ciddədə təşkil olunan VII qurultayında qərara alınmışdır: "Səhmlər qazanc və zərərə şəriklik olduğu üçün bir qayda olaraq halaldır, lakin bunların hökmü həmin şirkətin ticari fəaliyyət və məqsədlərinin halal olub-olmaması ilə yaxından əlaqəlidir. Şirkət faiz, içki istehsalı və ticarəti, qaçaqmalçılıq, ehtikarlıq, hiylə, yalan və aldatma kimi dinən haram olan vasitələrlə qazanc təmin etdikdə, bunların səhmini alıb-satmaq və bundan gəlir əldə etmək haram və günaha iştirak etmək olduğu üçün caiz deyil".

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

MƏSNƏVİDƏN

AXMAĞIN ÖLÜMDƏN QAÇMASI

Bir səhər axmağın biri Süleyman Peyğəmbərin qapısını kəsdirdi.
Süleyman Peyğəmbər soruşdu:
- Nə istəyirsən, ey Allahın bəndəsi?
Axmaq dedi:
- Bu gecə Əzrayıl başımın üstünü kəsdirmişdi, düz gözümün içinə baxırdı!
- De görüm, məndən nə umursan?
- Ey böyük padşah, küləyə əmr et məni götürüb Hindistana aparsın ki, Əzrayılın gözündən yayına bilim!
Süleyman padşahın əmriylə külək axmağı qanadına alıb bir göz qırpımında Hindistana atdı.
Bir müddət sonra Süleyman Peyğəmbər bir yerdə Əzrayıla rast gəlib soruşdu:
- Ey Allahın buyruqçusu, o bədbəxti evindən-eşiyindən ayırıb qərib çöllərə salmaq üçünmü gözünün içinə baxmışdın?
Ölüm mələyi dedi:
- Allah mənə o axmağın ruhunu Hindistan çöllərindən götürüb cəhənnəmə atmağı buyurmuşdu. Mən də günahkarın burada olduğunu görüb mat qalmışdım. Ancaq o, bir göz qırpımında oralara uçdu, mən də Allahın əmrini yerinə yetirdim.

Kaş, biz də hara qaçdığımızı, kimdən qaçdığımızı düşünək. Özümüzdən qaçmağa gücümüz çatmaz. Allahın əmrindən qaçmaq ehtimalı isə bundan da azdı.

ƏMİRİN ATI

Birisi əmirdən at istədi:
- Ya əmir, evim çox uzaqdadır, nə olar, bir at ver, minib gedim.
Əmir dedi:
- At istəyirsən? Odur bax, o çal atı min, get.
At istəyən yalvardı:
- Hansını verirsən ver, ancaq bu at olmasın, ya əmir. Bu at heç yorğa yerimir. Həm də gedəndə dal-dala yeriyir!..
Əmir dedi:
- Nə olar ki, sən də atın arxasını öz evinə sarı çevirərsən. Tamah və ehtiras səltənətində onsuz da hər kəs dal-dala yeriyir.

ALIN YAZISI

Bir oğru hasardan aşıb özgənin bağına girdi, acgözlüklə meyvələrin canına döşəndi. Bağ sahibi bunu görüb dedi:
- Oğru lələ, gözümün qabağında arsız-arsız bağımı talan eləyirsən, ancaq utanıb-qızarmaq, ya daizin istəmək heç ağlına da gəlmir. Məndən qorxmursansa, heç olmasa Allahdan qorx!

Oğru dedi:
- Mənim nə günahım var? Mən Allahın quluyam. Bu meyvələri bizə Allah verib. Mənim bura gəlməyim də ancaq Allahın işidir.

Bağ sahibi dedi:
- Nə deyirəm, ola bilər ki, sən haqlısan. Əgər dünyada hər işi Allahın adına yazmaq olarsa, onda mən Allahın qəzəbinin icraçısı kimi səni - Allahın günahkar bəndəsini Allahın ağacına bağlayacağam!

Bağ sahibi dediyi kimi də elədi, sonra da bir ağac götürüb döşəndi oğrunun canına. Oğru qışqırmağa başladı:
- Aman, neyləyirsən, əl saxla! Heç nəyin üstündə Allahın yaratdığına əl qaldırıb özünü günaha batırma!

Bağ sahibi də belə dedi:
- Bu dərsi mən səndən aldım, oğru lələ. Burda sənin məntiqindən fərqli nə var ki? Bir Allah bəndəsi Allahın ağacıyla başqa bir Allah bəndəsini döyür. Mənim qəzəbim də, əllərim də, sənin cəmdəyin də, bu ağac da - hamısı Allahındır!

"Heydər Əliyev və Müstəqil Azərbaycan" mövzusunda yazı müsabiqəsi

Mayın 8-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Gəncliyə Yardım Fondunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Müstəqil Azərbaycan" mövzusunda keçirilən yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı.

Bakı şəhər orta ümumtəhsil məktəbləri arasında keçirilən müsabiqə ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuşdu.

Tədbirdə çıxış edən Gəncliyə Yardım Fondunun vitse-prezidenti **Salman Əliyev**bildirdi ki, bu kimi müsabiqələr gənclərin intellektual səviyyələrinin artırılmasına xidmət edir. Daha sonra Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini **Aydın Yusifov** və Xocalı Soyqırımı Tanıtma İctimai Birliyinin sədri **Şamil Sabiroğlu** müsabiqənin əhəmiyyətindən danışdılar.

Tədbirin sonunda müsabiqənin qalibləri və fərqlənən iştirakçılar mükafatlandırıldı.

Qeyd edək ki, müsabiqənin keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərdə milli vətənpərvərlik ruhunun gücləndirilməsi, onların istedad və bacarıqlarının üzə çıxarılmasıdır.

Gəncliyə Yardım Fondu bir əlili də sevindirdi...

Bir insanı sevindirməyin nə qədər dəyərli bir əməl olduğunu hər birimiz çox yaxşı bilirik. Hələ sevindirdiyimiz insanın fiziki qüsurlu olması, özünü kifayət qədər istədiyi kimi idarə edə bilməməsi və onun digər insanlardan daha çox qayğıya ehtiyacı olması işin əhəmiyyətinin daha da böyüklüyündən xəbər verir. İnsanları sevmək, onlara qayğı göstərmək, ən azından onların dərdlərinə şərik olmaq, bununla yanaşı öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımıza, onların timsalında imkansız ailələrə imkanımızın çatdığı qədər yardımların edilməsi ən azından insanlıq və vətəndaşlıq borcumuzdur.

Bu ülvi qayəni qarşısına məqsəd qoyan Gəncliyə Yardım Fondu 1967-ci il təvəllüdlü Şirinova Sevil Hidayət qızının əlil arbasına olan ehtiyacını qarşılamışdır. İki dəfə cərrahiyə əmliyyatı keçirən Sevilin pəncəsi amputasiya edilmiş və normal hərəkəti məhdudlaşdırılmışdır. 72 yaşlı qoca anasının himayəsində yaşayan Sevil fonda ünvanladığı məktubunda da qeyd etdiyi kimi yaşadığı mənzilin havasız və qaranlıq olması və hərəkət edib havaya çıxa bilməməsi onu daha da çox narahat edirdi. Maddi vəziyyətinin pis olması səbəbilə ala bilmədiyi əlil arabasının 24 may tarixdə Gəncliyə Yardım Fondu tərəfindən hədiyyə edilməsi onun üçün böyük bir sevinc qaynağına çevrildi.

Əlil arabası fondun əməkdaşları və Səbael Rayon İcra Hakimiyyəti nümayəndələri tərfindən bir başa Sevilin yaşadığı mənzilə çatdırılmış və şəxsən özünə təqdim edilmişdir.

NƏŞRLƏR

Mehmet Rıhtım və Fariz Xəlilli tərəfindən qələmə alınan bu kitabda XIX əsrin tanınmış alimlərindən olan, Azərbaycanın, Türkiyənin və bütün Qafqazın ictimai həyatında mühüm xidmətlər göstərən Mövlanə İsmayıl Siracəddin Şirvaninin həyat və fəaliyyətindən, ardıcıllarından bəhs olunur. İlk qaynaqlar əsasında yazılan kitab tarix, mədəniyyət və ədəbiyyat ilə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbədir.

CBS Polygraphic Production / Bakı – 2011

"Elm və Təhsil" nəşriyyatı tərəfindən nəşr olunan "Onun sevgi məktubları" müasir Azərbaycan ədəbiyyatında epistolyar janrda yazılmış azsaylı əsərlərdən biridir. Real hadisələr üzərində qurulmuş romanda yer alan məktubların mətni də kitabda nağıl olunan sevgi hekayəti qədər gerçəkdir.
Oxuyacağınız hekayəti bədii təhkiyə və xırda müdaxilələrlə oxuculara çatdıran müəllif Qənitə Paşayeva hadisələrin yazarı olmaqla yanaşı, həm də əsl iştirakçılarından, yəni qəhrəmanlarından biridir. Onun sevgi məktubları üç nəfərin hekayətidir...

Elm və Təhsil Nəşriyyatı / Bakı – 2011
İSBN: 978-9952-8154-9-8



Maarifə Hacıyeva və Mehmet Rıhtım tərəfindən oxucuya çatdırılan bu kitabda Türk ədəbiyyatının və mədəniyyətinin böyük simalarından olan Yahya Kamal Bəyatlının həyatı və fəaliyyəti öz əksini tapır. Filoloq tələbə və araşdırmaçılar, eyni zamanda ədəbiyyat maraqlıları üçün nəzərdə tutulmuş vəsaitdə Azərbaycan oxucusuna ilk dəfə şairin həyatı və əsərlərindən seçmələr təqdim olunur. Kitabda Yahya Kamalın həyatı geniş işıqlandırılmış, yaradıcılığı bir çox yönləri ilə təhlil edilmişdir.

Qafqaz Araşdırmalar Universiteti, Qafqaz Araşdırmalar İnstitutu / Bakı – 2011
İSBN: 9952-460-15-5

tuwa

HICABLI QADIN GEYİMLƏRİNDƏ BOL ÇEŞİD VƏ İNANILMAZ UCUZLUQ

MANTO
TUNİK
KOSTYUM
YUBKA
ŞALVAR
KOFTA
HİCAB

İRFAN ABUNƏÇİLƏRİNƏ ƏLAVƏ ENDİRİMLƏR NƏZƏRDƏ TUTULUR

Ünvan: LÖKBATAN BİNƏ BAZARI, Sıra 7A, korpus 3, mağaza: 28 - 29

Tel: (+994 55) 208 72 55
(+994 12) 408 4043

Eyni ünvanda yeni dizaynda